Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

13 DEKABR 2019-cu il

№ 222 (4120)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDA MEHRİNİ, ZƏNGƏZURU İTİRMƏK QORXUSU KÜTLƏVİ PSİXOZ YARADIB

■ səh. 5 ■

ABŞ-ın Rusiya və Türkiyəyə təzə sanksiyaları Ermənistanı panikaya salır, Qarabağ münaqişəsinin həllinə yeni təsirlər...

■ səh. 7 ■

Son 10-15 ildə ilk - Azərbaycan cəmiyyəti seçkinin demokratik olacağına daha çox ümidlidir...

■ səh. 4 ■

Paşinyandan Putinə videoşantaj - KTMT Düşənbə sammiti...

■ səh. 5 ■

Paşinyan Ermənistanın sabiq prezidentlərini bir-bir məhv etməyi hədəfləyir...

■ səh. 10 ■

Azərbaycan polisindən misilsiz dünya ilki - humanizm hüququ üstələdi, balası üçün ərzaq oğurlayan valideyn bağışlandı...

■ səh. 13 ■

Almaniya televiziyasında şok ittiham - erməni mafiyası Ermənistan hakimiyyəti ilə bağlıdır

■ səh. 11 ■

Azərbaycanda "qohum-əqrəba bələdiyyəsi" yaradanlar da var imiş...

■ səh. 6 ■

Digah kəndinin yeni massiv sakinləri fəlakət içində - uşaqlar məktəbə gedə bilmir, "köçüb qohumlargildə yaşayırıq"...

■ səh. 15 ■



■ səh. 8 ■

## NATO-Rusiya ali rəhbərlərinin Bakı görüşünün böyük sirlərindən biri açıldı - NATO generalının etirafları... Bakıda yeni görüş olacaq...





Azərbaycan düşməni lərzəyə salacaq yeni silahlar əldə edir - Ermənistanın Rusiyadan qırıcı təyyarə alışı problemə döndü...

■ səh. 9 ■

Fərhad Əhmədovun gizli oyunları - Rusiyadakı soydaşlarımızın Azərbaycanda seçkiyə qatılması, qanunda dəyişiklik təklifi...

■ səh. 4 ■

Seçki ərəfəsi Azərbaycana təzyiqlər başladı - dünya QHT-ləri birləşdi, AŞPA-da siyasi məhbus mövzusu, beynəlxalq jurnalistlər təşkilatından həmlə...

■ səh. 3 ■

■ səh. 2 ■

ATƏT komissarından Azərbaycana yeni qərəz...



■ səh. 3 ■

Azərbaycan regionda Rusiyanın strateji müttəfiqinə çevrilmək üçün konkret nə etməlidir...



■ səh. 6 ■

Gülağa Aslanlı Müsavatın Avropa biznesini ifşa edənləri hansı niyyətlə məhkəməyə verdi...



■ səh. 12 ■

Ermənilər yazı sənəti oyunu ilə UNESCO-nu da aldatdılar...



■ səh. 13 ■

341 qadınımız İraq və Suriyaya necə aparılıb...



## YAP 126 nəfər səlahiyyətli nümayəndənin adını MSK-ya təqdim edib

**Yeni Azərbaycan Partiyası növbədənkənar parlament seçkilərinə hazırdır, sadəcə olaraq namizədlər irəli sürüldükdən sonra digər proseslərə başlanılacaq.**



"Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, deputat Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, YAP 126 nəfər səlahiyyətli nümayəndə və bir nəfər maliyyə məsələləri üzrə nümayəndənin adını Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib: "MSK artıq bunu təsdiq edb. Yalnız partiyanın namizədlərinin irəli sürülməsi prosesi qalıb. Bununla bağlı işlər aparılır, proses gedir və bu işlər tamamlanandan sonra biz hər dairə üzrə namizədlərimizi irəli sürəcəyik və siyahını da Mərkəzi Seçki Komissiyasına təqdim edəcəyik".

İcra katibi əlavə edib ki, Yeni Azərbaycan Partiyasının kifayət qədər potensialı və seçki təcrübəsi var: "Artıq hər bir dairə üzrə imza toplamaq üçün 10 nəfər müəyyən edilib".

## Səfir: "Heydər Əliyev atdığı hər bir addımdan örnək götürülməli olan böyük bir liderdir"

**Heydər Əliyev həqiqətən də həyatı araşdırılmalı olan və hər bir addımdan örnək götürülməli olan böyük bir liderdir. "Trend"in məlumatına görə, bunu Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.**

Onun sözlərinə görə, Heydər Əliyev bütün həyatı boyunca Azərbaycanın müstəqil olması barədə düşünüb: "Azərbaycan müstəqillik əldə etdikdən sonra o, ömrünü ölkəsinin necə yüksələcəyini düşünməklə keçirib, bu məsələ üçün həyatını da təhlükəyə atıb. Mən bir daha onun hüzurunda hörmətlə baş əyirəm. Türk dünyasının başı sağ olsun, belə bir lider hər zaman olmaz".

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dövlətimizin bütün elitası ilə birlikdə ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir.**

Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu əslində Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

Dekabrın 12-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın dövlət himni səslənib.

Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilərək, məzarları üstünə gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev və digər rəsmi şəxslər iştirak edib.

# ATƏT komissarından Azərbaycana yeni qərəz...

**"Azərbaycan ifadə azadlığı sahəsində irəliləyişə nail olmayıb". Bu fikirlər Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviçin Azərbaycanda ifadə azadlığının vəziyyəti, hüquqşünasların hüquqlarının pozulması və məcburi köçkünlərin hüquqlarına dair hazırladığı hesabatda öz əksini tapıb.**

*__Azər Həsrət:__ "Miyatoviçin Azərbaycanda ifadə azadlığının olmaması ilə bağlı dedikləri tamamilə absurddur"*




Məruzə Avropa komissarının nümayəndə heyətinin iyulun 8-dən 12-dək Azərbaycanda keçirdiyi görüşlər əsasında yazılıb.

Bununla belə, D.Miyatoviç Azərbaycanda söz azadlığının qorunmasında az irəliləyişin əldə olunmasından təəssüflənir. Onun sözlərinə görə, guya hökuməti tənqid edən jurnalistlər və sosial şəbəkələrin fəalları mütəmadi olaraq həbs edilirlər. Onlara qarşı polisə müqavimət, xuliqanlıq, pul qoparmaq, vergidən yayınma, etnik, dini nifrət qızışdırma, vətənə xəyanət, narkotik maddə, yaxud silah saxlama ittihamları irəli sürülür.

Komissar Azərbaycan hakimiyyətini öz baxışlarına görə həbs olunan şəxslərin hamısını azadlığa buraxmağa çağırır. Guya onlarla jurnalistin, vəkilin, siyasi fəalın və insan haqları müdafiəçisinin ölkədən çıxışına qadağa qoyulub. İnsan hüquqları komissarı Azərbaycan Cinayət Məcəlləsində diffamasiyaya görə cəzanın qaldığını bildirir və diffamasiyanın dekriminallaşdırılmalı olduğunu qeyd edib.

Hesabatın tamamilə qərəzli olması ortadadır. Gör qərəzin dərəcəsinə bax ki, komissar, ümumiyyətlə, Azərbaycanda ifadə azadlığı sahəsində irəliləyişin olmadığını iddia edir. Bu isə reallıqla heç cür uzlaşmır.

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, D.Miyatoviçin Azərbaycanda ifadə azadlığı ilə bağlı sərgilədiyi yanaşma tamamilə absurddur: "Mən o sənədlə tanış oldum. Açığı D.Miyatoviçin hələ də əvvəlki ampluada olması məni təəccübləndirdi.

## "Sözügedən hesabat reallığı əks etdirmir"

Mən onu uzun illərdir tanıyıram və şəxsən təmasda da olmuşam. Dəfələrlə müxtəlif məsələləri müzakirə etmişik. Onun Azərbaycanla bağlı yanlış fikirlərinə hər zaman reaksiya vermişəm. İndi də D.Miyatoviç iş yerini ATƏT-dən Avropa Şurasına dəyişib. AŞ-dakı vəzifəsində də Azərbaycana münasibətdə qərəzini gizlətmir. Miyatoviçin Azərbaycanda ifadə azadlığının olmaması ilə bağlı dedikləri tamamilə absurddur. Çünki Azərbaycanda ifadə azadlığı ilə bağlı heç bir problem yoxdur. Ölkədə istənilən adam, istənilən formada özünü ifadə edir və buna heç bir dövlət qurumu, təşkilat qarışmır. Bu gün Azərbaycan, əksinə, ifadə azadlığının bolluğundan əziyyət çəkir. Sosial media üzərindən nə qədər insan təhqir olunur və ümumiyyətlə, dözülməz bir şərait yaradılıb.

Bu da ifadə azadlığının həddən artıq çox olmasının göstəricisidir. Ona görə də Miyatoviçin o yanaşması əsassızdır, qərəzlidir. Bu onun, ümumiyyətlə, situasiyanı yetərincə təhlil etməməsinin göstəricisidir. Miyatoviç bir neçə ay öncə Azərbaycana səfər edərək bir sıra görüşlər keçirdi. Səfəri hesabat hazırlamaqla bağlı idi. Ancaq onun geniş çevrələrlə görüşlərə meyl etməsi müşahidə olunmadı. Onda şübhələndim ki, Miyatoviçin hazırlayacağı hesabat qərəzli və naşı olacaq. Ona görə də sözügedən hesabat reallığı əks etdirmir".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Azərbaycanda növbədənkənar parlament seçkilərinə 2 ay vaxt qalıb. İki aydan sonra ölkədə yeni parlament formalaşacaq. Sözügedən seçkilər son illər ölkədə aparılan köklü, sistemli və kardinal xarakterli islahatların tərkib hissəsidir.**

# Seçki ərəfəsi Azərbaycana təzyiqlər başladı - dünya QHT-ləri birləşdi, AŞPA-da siyasi məhbus mövzusu, beynəlxalq jurnalistlər təşkilatından həmlə...




Aparılan struktur islahatları fonunda, əvvəlki parlament müvafiq tələblərə cavab vermirdi. O üzdən, ölkədə həyata keçirilən yeniliklər növbəti parlament seçkilərinin keçirilməsi zərurətini ortaya qoydu.

Məlumdur ki, Azərbaycanda həyata keçirilən islahatların müsbət nəticələri bir sıra beynəlxalq reytinq agentliklərinin hesabatlarında öz əksini tapıb. Çox qəribədir ki, parlament seçkiləri yaxınlaşdıqca son günlər bəzi siyasi yönümlü beynəlxalq təşkilatlar eyni vaxtda Azərbaycana qarşı fəallaşıblar. Ard-arda tənqidi açıqlamalarla çıxış edirlər. Məsələn, insan hüquqları sahəsində qırx iki beynəlxalq QHT birgə bəyanat yayaraq, Azərbaycanda müstəqil vəkillərə təzyiqin dayandırılmasını tələb edib.

"Biz, İnsan Hüquqları Evi təşkilatının 42 üzvü və tərəfdaşı insan hüquqları sahəsində vəkillərə, o cümlədən, Şəhla Hümbətova və Elçin Sadıqova qarşı prosedurlara dərhal son qoyulmasını tələb edirik", - deyə Azərbaycan Vəkillər Kollegiyasının rəhbəri Anar Bağırovun adına ünvanlanmış müraciətdə bildirilir. Müraciətdə o da qeyd edilir ki, guya Azərbaycanda bəzi vəkillər fikri ifadə azadlığını müdafiə etməyə, müştərilərinə qarşı işgəncələr haqqında məlumat verməyə və siyasi məhbusları müdafiə etməyə hazır olduqlarına görə təzyiqə məruz qalıblar.

Bundan başqa, Nyu-Yorkda yerləşən Jurnalistləri Müdafiə Komitəsi (JMK) dekabrın 11-də dünyada jurnalistlərin vəziyyəti haqqında hesabat yayıb. Sənəddə deyilir ki, Azərbaycanda hələ də 6 jurnalist: "Meydan TV" ilə əməkdaşlıq edən Əfqan Muxtarlı, "Xəbər 44" saytının redaktoru Araz Quliyev, "Kend.info" saytının təsisçisi Elçin İsmayıllı, "Realliq.info" saytının rəhbəri İkram Rəhimov, "Xeberman" saytının rəhbəri Polad Aslanov və "Azadlıq" qəzetinin regional müxbiri Ziya Əsədli həbsdədir. Hansı ki, sözügedən jurnalistlər ifadə azadlığına görə yox, konkret cinayət və digər bu kimi əməllərə görə həbs olunublar. Onlardan bəziləri reketçilik fəaliyyəti ilə məşğul olaraq insanları şantaj ediblər. Bununla bağlı çoxsaylı dəlil və sübutlar var.

Bundan bir gün əvvəl AŞPA-nın Hüquqi Məsələlər və İnsan Haqları Komitəsi bildirib ki, Azərbaycanda guya "sistemli" siyasi məhbus problemi var və hakimiyyəti qeydiyyata alınmış hallara yenidən baxmağa çağırır. AŞPA Komitəsi Avropa İnsan Hüquqları Məhkəməsinin gəldiyi nəticələr əsasında və AŞPA-nın təqdimatına əsasən, bir sıra şəxslərin "siyasi məhbus" olduğunu müəyyən edib. Komitə, həmçinin, Azərbaycan parlamentini Assambleyanın qətnaməsinin yerinə yetirilməsi üçün siyasi məhbuslar üzrə məruzəçi ilə əməkdaşlıq etməyə, Azərbaycan hökumətini isə Avropa Şurası Nazirlər Komitəsi ilə tam həcmdə əməkdaşlığa çağırıb. Halbuki, Azərbaycanda siyasi məhbus problemi çoxdan öz həllini tapıb. Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv qəbul olunandan sonra bütün siyasi məhbuslar azad edilib. Qanunvericilik daha da təkmilləşdirilib. Söz və ifadə azadlığı məsələsində yeni-yeni imkanlar yaranıb. İstənilən ölkə vətəndaşı internetə çıxış imkanına və orada öz fikirlərini azad şəkildə ifadə etmək hüququna malikdir. Bu onu göstərir ki, Azərbaycanda söz və ifadə azadlığı ilə bağlı vəziyyət pisləşməyib, əksinə, daha da yaxşılaşıb. Belə olan halda, parlament seçkilərinə 2 ay vaxtın qaldığı bir vaxtda bəzi beynəlxalq təşkilatların Azərbaycanla bağlı tənqidi xarakterli hesabatlar yaymasında məqsədi nədir? Məqsəd bu minvalla ölkə hakimiyyətinə təzyiq göstərməkdir. Çünki Azərbaycanın müstəqil siyasət yeritməsi, geosiyasi balansı çox uğurla qoruya bilməsi xaricdəki bəzi mərkəzləri narahat edir. Ona görə də müxtəlif təzyiq vasitələrini işə salırlar. Zatən, belə hallar yeni deyil. Azərbaycanda hər seçki ilində bənzər ənənəvi təzyiqlərin şahidi oluruq. Bu da olardan biridir. Ancaq nəzərə alsaq ki, Azərbaycan müstəqillik illərində kifayət qədər inkişaf edib, o zaman belə təzyiqlərin heç bir təsiri olmayacaq və bəlli mərkəzlər öz niyyətlərini bu dəfə də reallaşdıra bilməyəcəklər.

***Vidadi ORDAHALLI***

**Beynəlxalq münasibətlər sistemində ölkələr arasında münasibətlərin göstəricisi müəyyən politoloji terminlərlə ifadə olunur. Bunların sırasına strateji müttəfiq, strateji tərəfdaş və başqalarını aid edə bilərik. Azərbaycanın da bir çox ölkə ilə belə münasibətləri var.**

# Azərbaycan regionda Rusiyanın strateji müttəfiqinə çevrilmək üçün konkret nə etməlidir...

## *Nəzakət Məmmədova: "Defakto Ermənistan forpost, Azərbaycan isə tərəfdaşlıqdan daha üstün statusdadır"*



Məlumdur ki, bizi qonşumuz Rusiya ilə bir çox tel bağlayır. Hazırda da iki ölkə arasındakı münasibətlər bütün istiqamətlər üzrə normal məcrada davam edir, hətta ən yüksək səviyyədə olduğunu da demək olar. Ancaq buna baxmayaraq, bizimlə Rusiya arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsində qiymətləndirilir. Yəni biz Rusiya ilə hələ ki, münasibətləri strateji müttəfiqlik səviyyəsinə çatdıra bilməmişik. Ancaq Ermənistanla Rusiya strateji müttəfiq sayılır. Ola bilər ki, bu, Ermənistanın Rusiya ilə KTMT və Avrasiya İqtisadi İttifaqı kimi bloklarda təmsil olunmasına görədir. Azərbaycan həmin təsisatlarda təmsil olunmasa da, Rusiya ilə müttəfiqlik səviyyəsində münasibətlərə malikdir. Maraqlıdır, Azərbaycan regionda Rusiyanın strateji müttəfiqinə çevrilmək üçün konkret nə etməlidir?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıqdan daha üstün statusa malikdir və son illərdə bu daha da inkişaf etməkdədir: "Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfərləri, Birinci vitse-prezident Mehriban Əliyevanın Moskvada keçirdiyi ikitərəfli görüşlər, eləcə də Rusiya XİN başçısı Lavrovun Azərbaycana səfəri əhəmiyyətli hadisələr hesab oluna bilər. Baxmayaraq ki, deyure Ermənistan Rusiyanın müttəfiqi statusundadır, lakin defakto Ermənistan forpost, Azərbaycan isə tərəfdaşlıqdan daha üstün statusdadır. Faktiki olaraq, Rusiya və Azərbaycanın Təhlükəsizlik şuraları arasında 2020-2021-ci illər əməkdaşlıq planına dair razılaşmanın imzalanması iki ölkə arasında son illər imzalanmış ən diqqətəlayiq hadisələrdən biridir. Bu, qarşıdakı mürəkkəb dövrdə iki ölkə arasındakı Təhlükəsizlik şuralarının səlahiyyətlərinə daxil olan məsələlərdə ümumi yanaşmanın, əlaqələndirilmiş fəaliyyətin təminatçısıdır.

Cənubi Qafqaz və ümumilikdə, keçmiş sovetlər birliyinə daxil olan məkan həlledici bir dövrə qədəm qoyur. Burada iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi və siyasi xəttin uzlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Lavrovun səfəri çərçivəsində Rusiya və Azərbaycan xarici siyasət idarələrinin 2020-ci ilə dair məsləhətləşmə planını imzalaması gələn il ölkələrimizin regional problemlərə məsləhətləşmiş, koordinasiyalı yanaşma ortaya qoyacağını göstərir. Artıq Rusiya Ermənistanı öz orbitində saxlamaq iradəsini qətiyyətli şəkildə ortaya qoyub, Azərbaycanla hər iki ölkənin milli maraqlarına əsaslanan münasibətləri inkişaf etdirməyə nail olub. 2020-ci ildə Rusiyanın regionda əsas problemi Gürcüstanda öz mövqeyinin möhkəmlənməsi və həll olunmamış münaqişələr, xüsusilə Dağlıq Qarabağda qondarma seçkilərdə Saakyan rejiminin saxlanması, yaxud onun Rusiyaya loyal şəxslə əvəzlənməsidir. Bu baxımdan Qarabağ münaqişəsinin həlli Rusiyanın da maraqları daxilindədir".

***Məhəmmədəli QƏRİBLİ***

# Fərhad Əhmədovun gizli oyunları - Rusiyadakı soydaşlarımızın Azərbaycanda seçkiyə qatılması, qanunda dəyişiklik təklifi...

**İndiyə kimi Azərbaycanda elə bir ciddi siyasi aktivliyi ilə seçilməyən Rusiyanın senatoru Fərhad Əhmədov birdən-birə olduqca geniş və əhatəli, siyasi cəhətdən kifayət qədər yetkin şəkildə hazırlanan bir yazı ilə çıxış edib. Daha doğrusu, hakimiyyətə özünün hazırladığı "yol xəritəsini" təqdim edib.**



## *İsmayıl Ağayev: "Yaxşı olar ki, Fərhad Əhmədov Rusiyada olan erməni iş adamlarının nələr etdiklərinə diqqət etsin"*

Onun genişhəcmli yazısında bütün sahələrə toxunulub. Həmin yazıda milyarder diaspor nümayəndələrinin seçkilərdə rahat iştirakını təmin etmək üçün bəzi qanunvericilik aktlarına dəyişikliklərin olunmasını təklif edir.

F.Əhmədov xaricdə yaşayan diaspor üzvlərinin lobbiçilik imkanlarından və təcrübələrindən yararlanmağın vacib olduğunu və bu şəxslərin prosesə qatılması üçün vətəndaşlıq haqqında qanuna və Seçki Məcəlləsinə dəyişikliklər edilməsinin vacibliyini önə çəkir. Belə qənaətə gəlmək olur ki, bütün bu "yol xəritəsinin" əsas qayəsi də məhz elə bu müddəanın üzərində formalaşır...

Milyarderin paylaşdığı "yol xəritəsinin" nəticə hissəsində isə bildirilir ki, növbədənkənar seçkilər şəffaf şəkildə keçirilməli və saxtakarlığa yol verilməməlidir: "Bu kontekstdə konstruktiv müxalifətin seçkiyə və qanunverici hakimiyyətin sonrakı fəaliyyətinə cəlb edilməsi onun strateji islahatların mexanizminə inteqrasiyasını təmin edə bilər".

Rusiya vətəndaşı olan diaspor nümayəndələrinin Azərbaycandakı seçkilərdə iştirakına bir zərurət varmı?

Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Fərhad Əhmədovun məqaləsini daha yaxşı başa düşmək üçün bir neçə dəfə oxuyub: "Sözün açığı, mən illərdir onunla maraqlanırdım. Adi bir azərbaycanlının gedib Rusiyada milyarder olması məni çox sevindirirdi. Onu da diasporumuzun fəxri üzvlərindən sayırdım. Mən, həmçinin, maraqlanırdım ki, görəsən o, neçə azərbaycanlıya dəstək olub, onların təhsil almalarına, mövqe tutmalarına köməklik göstərib? Təəssüflər olsun ki, mən belə bir adama rast gələ bilmədim. Buradan belə bir nəticə əldə etmək olur ki, həmin milyarderlərin başlıca davaları özlərinin mövqelərinin gücləndirilməsi ilə bağlıdır. Çox maraqlıdır, biz belə imkanda olan adamdan Rusiyada mövqe tutmalarını gözləyirik, onların isə gözləri Azərbaycanda deputat olmaqdadır. Bu nə yanaşmadır? Biz istəyirik ki, soydaşlarımız təmsil olunduqları ölkələrdə yer tutsunlar, üstün mövqeyə sahiblənsinlər, bunlar da burada deputat olmağa can atırlar. Yaxşı olar ki, Fərhad Əhmədov Rusiyada olan erməni iş adamlarının nələr etdiklərinə diqqət etsin. Onlar, əksinə, ermənilər ölkədən dartıb aparıb Rusiyada irəli çəkirlər, yeri gələndə Qarabağa yardım edirlər. Fərhad bəyin bu mövqeyini bəyənmədim və onun diaspor quruculuğumuza mənfi təsir edəcəyini düşünürəm. Hesab edirəm ki, bu cür adamlar qanunda dəyişikliyi yalnız deputat seçilməyə görə etmirlər. Onlar həm də gələcəkdə prezident seçkilərində iştiraklarının mümkünlüyü üçün bu tələbi irəli sürürlər. Onun müraciətindəki detalın başlıca məğzi məhz budur. Onda elə təşkil etsin biz də gedək Rusiyada deputat seçilək. Bunu edə bilmirsə, niyə öz ölkəsinə xarici təsirlərin artmasında maraqlıdır? F.Əhmədovun məhz indiki məqamda fəallaşması da təsadüfi deyil. Zaman-zaman biz Rusiyadan analoji "küləklərin" əsməsinin şahidi olmuşuq. Yaxşı olardı ki, o, elə yaşadığı ölkədəki diasporumuzun inkişafına dəstək versin. Onun Azərbaycana ən böyük xidməti elə bu olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Son 10-15 ildə ilk - Azərbaycan cəmiyyəti seçkinin demokratik olacağına daha çox ümidlidir...

**Bütün demokratik sistemlərdə seçki dövlət və ictimai təşkilatlarda vacib vəzifələrin tutulması üçün keçirilən demokratik üsuldur və dünya təcrübəsində qanunda nəzərdə tutulan reqlamentə uyğun olaraq, əsasən gizli keçirilir.**



Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında seçkilər həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır. Seçkilər hakimiyyətin xalq etimadını və müdafiəsini əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Bu mühüm vasitə cəmiyyəti sosial-hüquqi ədalətsizliklərdən və avtoritarizmin təzahürlərindən qoruyur.

Vətəndaşların seçmək və seçilmək hüququ Azərbaycan Respublikasında dövlət işlərinin və ictimai işlərin idarə olunmasında onların iştirakı haqqında Konstitusiya ilə verilmiş hüquqların ən mühüm hüquqi təminatıdır. Respublikanın 18 yaşına çatmış vətəndaşları seçki qanunları ilə müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçib-seçilirlər.

Azərbaycanda davam etdirilən genişmiqyaslı islahatlar bütün sahələr kimi, Milli Məclisi də əhatə etməli idi. Hazırda həyatımızın bütün sahələrində aparılan yenilənmə, idarəetmədəki struktur islahatları, gəncləşmə siyasətini xalq rəğbətlə qarşılayır. Sosial şəbəkələrdə gedən müzakirələrdən və seçki başlamadan vətəndaşların kütləvi şəkildə deputat olmaq iddialarını açıq şəkildə ortaya qoymasından məlum olur ki, prosesin daha demokratik olacağına əhalidə böyük əminlik var. Hətta müxalif mövqeli insanlar da budəfəki seçkidə mandat qazana biləcəkləri şanslarının çox olduğunu bəyan edirlər. Belə rəqabətdə keçəcək seçkidə sözsüz ki, seçici fəallığı da digər seçkilərdən güclü olacaq. Təbii ki, vətəndaşlarda belə bir inamın formalaşmasının ciddi əsasları var. Burada Prezidentin nümayiş etdirdiyi siyasi iradənin də rolu böyükdür. Çünki seçkilər ölkədə aparılan inqilabi dəyişikliklərin fonunda baş tutur. Təsadüfi deyil ki, ölkənin ən radikal mövqeli müxalif partiyaları sayılan: REAL, Müsavat, Ümid və digərləri də seçkilərdə iştirak edəcəklərini bəyan ediblər. Əli Kərimlinin nəzarətində olan Milli Şura belə ənənəvi taktikasını birmənalı elan edə bilmir. Prosesin cəzbediciliyi onları boykot taktikasına getməyə də tam imkan vermir. Bir sözlə, biz ölkəmizin tarixində son illərin ən maraqlı seçki prosesini izləməli olacağıq.

***Məhəmmədəli QƏRİBLİ***



# "Rusiya Qarabağ münaqişəsinin həlli üzrə dialoqun davam etdirilməsi üçün əlindən gələni edəcək"

**Rusiya Federasiyası Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə dialoqun davam etdirilməsi üçün əlindən gələni edəcək.**

"Trend"in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Bratislavadakı danışıqlardan sonra Azərbaycan və Ermənistanın yaydığı bəyanatlardakı fərqli mövqeləri şərh edərkən deyib.

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşünə münasibət bildirən diplomat qeyd edib ki, tərəflər dialoqun gələcəyi haqqında baxışlarının uyğunsuzluğu və ya mümkünsüzlüyünü qeydə almayıblar: "Biz tərəflərin dialoqun gələcəyi haqqında baxışlarının uyğunsuzluğu və ya mümkünsüzlüyünü qeydə almamışıq. Məncə, tərəflər də bu barədə danışmayıblar. O ki qaldı mövqelərin fərqliliyinə, bu, aydın məsələdir. Əks təqdirdə danışıqlar prosesi olmazdı. Biz öz tərəfimizdən həlli gecikən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması naminə vasitəçi kimi bu dialoqun davam etdirilməsinə hər cür yardımı göstərəcəyik. Əlimizdən gələni edəcəyik ki, dialoq konstruktiv şəkildə davam etdirilsin və tərəflər qarşılıqlı məqbul həllə gəlib çıxa bilsinlər".

M.Zaxarova Azərbaycan və Ermənistan jurnalistlərinin qarşılıqlı səfərlərini müsbət qiymətləndirib.

**Artıq Ermənistanın daxili ictimai rəyində Paşinyanın Dağlıq Qarabağla bağlı tutduğu yanlış mövqedən narahatlıqlar ifadə olunur. Hətta KİV-də açıq mətnlə yazılır ki, belə mövqenin gələcəkdə Ermənistana böyük ziyanı ola bilər.**



# Ermənistanda Mehrini, Zəngəzuru itirmək qorxusu kütləvi psixoz yaradıb

***Hatəm Cabbarlı:** "Sanki Azərbaycan Türkiyə ilə birlikdə hərbi əməliyyatlara başlayacaq kimi rəy formalaşdırmağa çalışırlar"*

Erməni hərbi ekspert David Camalyan bildirir ki, Qarabağ məsələsində danışıqlar yolu ilə nəticə əldə olunmasa, Ermənistanı böyük problemlər gözləyir. Onun sözlərinə görə, Ermənistan təkcə Qarabağ üzərində nəzarəti itirməyəcək. O iddia edir ki, Qarabağda hərbi əməliyyatların başlaması Ermənistanın indiki ərazilərindən qopmaların olması ilə də nəticələnə bilər. Burada ekspert, ilk növbədə, Mehri dəhlizinin adını çəkir. Onun sözlərinə görə, Ankara və Bakının strateji hədəfi Mehrini geri qaytarmaqdan ibarətdir: "Rəsmi Bakı bu mövqeyindən geri çəkilməyəcək. Biz isə hazırda illüziyalar qurmaqdayıq. Ermənistan tərəfi hər cür ssenariyə hazır olmalıdır. Qeyd etmək yerinə düşərdi ki, bu gün Azərbaycan Rusiya ilə də uğurlu siyasət yürüdür. Kremlə bu gün öz böyük layihələrində Azərbaycanın iştirak etməsi vacibdir. Bakı isə, öz növbəsində, bunu anlayır və Qarabağ məsələsində maksimum irəliləməyə çalışır. Bütün bunlar davam edərsə, bu bizim üçün qəbuledilməz bir ssenaridir."

Qeyd edək ki, ermənilərin Qafqazda özlərinə dövlət qurmaları üçün Azərbaycanın İrəvan xanlığının ərazisi və İrəvan şəhəri ermənilərə 29 may 1918-ci ildə Azərbaycan parlamentinin qərarı ilə verilib. Mehri, Qafan, Gorus, Dərələyəz və Göyçə ərazisi 1920-ci ildə Ermənistana birləşdirilib. Həmçinin, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb və Azərbaycan torpaqları hesabına dövlət quran ermənilərə Azərbaycan ərazisində muxtariyyət də verilib. Digər tərəfdən, Zəngəzurun, Mehrinin Ermənistana verilməsi ilə Türk dünyası arasında birbaşa coğrafi bağlar da itib. Bu məsələyə Prezident İlham Əliyev cari ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda baş tutan Zirvə görüşündəki çıxışında da toxunub: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük Türk dünyasını coğrafi baxımdan parçaladı". İndi bu yanaşma fonunda Ermənistanda ehtiyat edirlər ki, yeni Qarabağ savaşı başladıqda Rusiya İrəvana hansısa formada dəstək göstərməsə, böyük Türk dünyası arasında birbaşa coğrafi bağlar bərpa oluna bilər.

Düzdür, Azərbaycan Ermənistandan hansısa ərazi qoparmağa hazırlaşmır. Sadəcə, beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünü bərpa etmək istəyir. Ermənistanın bu məsələnin sülh yolu ilə həllinə maneə yaratması isə yuxarıda səslənən fikirlərdən də aydın göründüyü kimi, düşmən ölkənin özünün böyük problemlər məngənəsində qalması deməkdir. Ermənilərin məhz Mehri dəhlizi ilə bağlı keçirdikləri narahatlığı nə dərəcədə əsaslı saymaq olar?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyanın 2018-ci ildə inqilab nəticəsində hakimiyyətə gəlməsindən sonra Ermənistanın Dağlıq Qarabağ probleminə münasibəti tamamilə dəyişdi: "Paşinyan ATƏT-in vasitəçiliyilə keçirilən görüşlərdə tamamilə fərqli mövqe ortaya qoymağa çalışır. Daha əvvəlki danışıqların predmetini dəyişməyə cəhd edir. Nikol Paşinyanın daxili dayaqları zəif olduğu üçün o, danışıqlar prosesində konstruktivlik nümayiş etdirə bilmir. O hesab edir ki, bu cür radikal mövqe ortaya qoymaqla diqqəti sosial problemlərdən bir qədər yayındırmaq olar. Ermənistanın daxilində isə sosial problemlər öz həllini tapa bilmir. Pensiyalar, müavinətlər vaxtında ödənilmir. Ancaq Ermənistanın Baş nazirinin bu mövqeyi heç də bütün cəmiyyət tərəfindən təqdir edilmir. Bir sıra tanınmış siyasətçilər, ekspertlər hesab edirlər ki, belə siyasətin yürüdülməsi onlara fayda verən deyil. Son günlər erməni mətbuatında Azərbaycanın hərbi əməliyyatlara başlaya biləcəyi ilə bağlı fikirlər daha intensiv səslənməyə başlayıb. Hətta bununla bağlı sos siqnalı da verirlər ki, Azərbaycan bunun fonunda Zəngəzuru da ələ keçirə bilər. Burada maraqlı bir nüans da var. Bu yöndə verilən şərhlərdə ermənilər Azərbaycanın yanında Türkiyənin də adını çəkirlər. Sanki Azərbaycan Türkiyə ilə birlikdə hərbi əməliyyatlara başlayacaq kimi rəy formalaşdırmağa çalışırlar".

Ekspertin sözlərinə görə, Azərbaycanın istənilən vaxt hərbi əməliyyatlara başlamaq haqqı və hüququ var: "Təbii ki, bunu özü edəcək. Çünki ordusuna və Prezidentinə tam güvənir. Azərbaycan Ordusunun son illər ərzində müasir silahlarla təmin olunması baxımından heç bir problemi yoxdur.

Bu da onu deməyə əsas verir ki, bizim hərbi əməliyyatlara başlayacağımız təqdirdə hansısa ölkənin hərbi dəstəyinə ehtiyacımız yoxdur. Ermənistandan bu məsələnin dövriyyəyə buraxılması və xüsusilə də məsələdə Türkiyənin adının hallandırılması bizi haqsız çıxarmağa yönəlik strategiyadır. Təbii ki, Azərbaycan sona qədər dözüm nümayiş etdirə bilməz. Azərbaycan işğal altındakı torpaqları azad edməyə başlayacağı təqdirdə Ermənistan istənilən sürprizlərlə qarşılaşa bilər. Hərbi əməliyyatalar başlayandan sonra biz onun detallarını görə biləcəyik.

İndidən hansısa rəylər bildirməyi lazımsız sayıram. Azərbaycan qısa zamanda ərazi bütövlüyünü təmin etməyə qadirdir. Bu baxımdan, Ermənistandakı ekspertlərin narahatlığı əbəs deyil. Müharibə təhlükəsi hər zaman var və bunun fonunda istənilən ssenari üzrə proseslər gedə bilər. Sonda uğur Azərbaycanın olacaq".

*Məhəmmədəli QƏRİBLİ*

**Erməni jurnalistlər Baş nazir Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putini ifşa etməyə çalışdığını iddia ediblər. Məsələ ondadır ki, 28 noyabrda Bişkekdə təşkil olunan KTMT-nin sammiti zamanı Paşinyanın təşkilata üzv olan dövlətlərin liderlərinin bir sənədin altındakı imzalarının fotosunu çəkərək sosial şəbəkədə paylaşması birmənalı qarşılanmayıb.**



# Paşinyandan Putinə videoşantaj - KTMT Düşənbə sammiti...

***Əli Orucov:** "Bir tərəfdən KTMT-ni və Rusiya Prezidenti Putini "saxtakar" kimi təqdim edirlər, digər tərəfdən isə..."*

Erməni mediası yazır ki, Ermənistan lideri bunu KTMT-ni populyarlaşdırmaq üçün etdiyini desə də, jurnalistlər daha sensasion fikir səsləndiriblər: "Əslində, o, bütün dünyaya Vladimir Putinin sənədi imzalamadığını göstərdi. Putinin imzası, daha doğrusu, imzasının surəti sənəddə əvvəlcədən mövcud idi. Videoda isə Putinin sənədi imzalaması əks olunur. Çox güman ki, Paşinyan bu cür hallarla əvvəllər də qarşılaşıb və bu dəfə o, Rusiya rəhbərliyini ifşa etmək, baxın, bu Putin "əsl Putin" deyil, onun bənzəridir demək istəyib".

Erməni jurnalistlərinin hazırladığı videoda qeyd olunur ki, Paşinyanın bu cür vasitələri işə salması təsadüfi deyil.

Belə görünür ki, Paşinyanla Putin arasında bir sıra məsələlərdə mövcud olan fikir ayrılıqları qalmaqdadır. O üzdən, tərəflər bir-birinə etibar etmir. Paşinyan sözügedən şantaj vasitələrinə əl atmaqla Rusiya Prezidentini erməni xislətinə xas olan hiyləgərliklə hörmətdən salmağa çalışır. Bunu açıq edə bilmədiyi üçün, belə priyomlara əl atır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun fikrincə, Paşinyan bununla KTMT-nin imicinə kölgə salmağa çalışır: "28 noyabrda Bişkekdə təşkil olunan KTMT-nin sammiti zamanı Paşinyanın təşkilata üzv olan dövlətlərin liderlərinin bir sənədin altındakı imzalarının fotosunu çəkərək sosial şəbəkədə paylaşması birmənalı qarşılanmayıb. Erməni Baş nazir bununla guya həm Rusiya Prezidenti Vladimir Putinin, həm də, ümumilikdə, qurumun ciddiliyini şübhə altına almaq istəyir. Məlum olduğu kimi, Paşinyanın qeyri-sabit və sistemsiz xarici siyasəti Moskvanın xoşuna gəlmir. Buna görə də Rusiya Ermənistanı və onun Baş naziri Paşinyanı hər fürsət düşdükcə aşağılayır.

*"Buna görə də Rusiya Ermənistanı və onun Baş naziri Paşinyanı hər fürsət düşdükcə aşağılayır"*

Bir imzanın Ermənistanda bu qədər şişirdilməsi ermənilərin Putinə demarşı kimi qələmə verilməyə çalışılır. Hansı ki, Putinin özü həmin toplantıda şəxsən iştirak edib. Bir tərəfdən KTMT-ni və Rusiya Prezidenti Putini "saxtakar" kimi təqdim edirlər, digər tərəfdən isə bu qurumun və Putinin kölgəsinə sığınırlar, onun ətəyindən öpürlər. Bu, əsl erməni ikiüzlülüyüdür. Bunun başqa adı yoxdur, riyakarlıq və ikiüzlülükdür. Ermənilərin isə bu, xarakterik xüsusiyyətlərindən biridir. Bu kimi cılız vasitələrlə, təbii ki, heç nəyə nail ola bilməyəcəklər. Əksinə, Putini deyil, özlərini ifşa edirlər".

*Vidadi ORDAHALLI*

Məlumdur ki, dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Bələdiyyə seçkilərində iştirak edəcək namizədlər də artıq bəllidir. Namizədlər arasında elələri var ki, onlar diqqəti daha çox cəlb edirlər. Məsələn, namizədlərdən bəzisi ailəlikcə seçkidə iştirak edəcək.

# Azərbaycanda "qohum-əqrəba bələdiyyəsi" yaradanlar da var imiş...



| | | | | |
|---|---|---|---|---|
| CANİYEV AZƏR MƏMMƏDCAN | 23.10.1954 | İŞSİZ | VHP | Öz təşəbbüsü |
| CAVADOV XALİD VAQİF | 23.03.1983 | AZƏRİŞIQ ASC DAXİLİ NƏZARƏT İDARƏSİ, MÜTƏXƏSSİS | Bitərəf | Öz təşəbbüsü |
| CƏFƏRLİ ELNUR TAHİR | 07.11.1986 | 79 NÖMRƏLİ TAM ORTA MƏKTƏB, TƏSƏRRÜFAT MÜDİRİ | Bitərəf | Öz təşəbbüsü |
| CƏFƏRLİ GÜLYAZ RƏFAİL | 24.01.2001 | İŞSİZ | Bitərəf | Öz təşəbbüsü |
| CƏFƏROV RAMİL CƏFƏR | 08.09.1977 | XƏYYAM-87 LKS, EKSPEDİTOR | Bitərəf | Öz təşəbbüsü |
| CƏFƏROV RƏFAİL CƏFƏR | 01.01.1969 | ƏMİRCAN BƏLƏDİYYƏSİ, SƏDR | YAP | YAP |
| CƏFƏROV RİZVAN CƏFƏR | 01.07.1967 | İŞSİZ | Bitərəf | Öz təşəbbüsü |
| CƏFƏROVA AYDAN NƏHMƏD | 30.03.1991 | 84 NÖMRƏLİ TAM ORTA MƏKTƏB, LABORANT | YAP | Öz təşəbbüsü |
| CƏFƏROVA AYGÜN NƏSİR | 18.10.1982 | ÖZƏL KLİNİKA, HƏKİM | AVP | AVP |
| CƏFƏROVA SƏADƏT CƏFƏR | 18.08.1973 | 84 NÖMRƏLİ TAM ORTA MƏKTƏB, KİMYA MÜƏLLİMİ | Bitərəf | Öz təşəbbüsü |
| EYNULLAYEVA TƏRANƏ BÖYÜK AĞA | 23.05.1965 | DOST MMC, ABADLIQ İŞÇİSİ | Bitərəf | Öz təşəbbüsü |

***Famil İbrahimov:** "Bir ailənin tam şəkildə seçkiyə qatılması ölkədə keçirilən bələdiyyə seçkilərində..."*

Bakıda bir ailə var ki, bütün diqqətini bələdiyyə seçkilərinə yönəldib və həmin seçkilərə hazırlaşmaqdadır. Üstəlik, bütün ailə üzvləri ilə birlikdə, əsaslı şəkildə…

Sosial şəbəkələrdə yayılmış məlumatlara əsasən, Əmircan bələdiyyəsinin sədri, YAP üzvü Rafael Cəfərov bələdiyyə seçkilərində ailəlikcə yaxından iştirak etmək fikrindədir. Belə ki, onun ailə üzvü və yaxın qohumları olan şəxslər öz namizədliyini irəli sürüb. Yəni potensial olaraq Əmircan bələdiyyəsinin yeni tərkibi ancaq Cəfərovun ailə üzvlərindən formalaşa, yəni, bir növ, "ailə bələdiyyəsinə" çevrilə bilər. Beləliklə, üçüncü Suraxanı seçki dairəsindən bələdiyyə üzvlüyünə namizəd kimi R.Cəfərov özü, onun qızı, oğlu, iki bacısı, iki qardaşı və iki yaxın qohumu qeydə alınıb. Yəni R.Cəfərov öz rəqiblərinə heç bir şans buraxmır. Namizədlər siyahısına baxan zaman yalnız Cəfərovları görmək olar.

Analoji hal Qaxda da qeydə alınıb. Belə ki, 112 saylı Qax seçki dairəsi ərazisində fəaliyyət göstərən bəzi seçki məntəqələrində ailəvi iştirakçılıq müşahidə olunur. Qum seçki məntəqəsinin sədri Qurbanov Hacıqurban Qasım oğlunun övladı Qurbanov Sərxan Hacıqurban oğlu Qum bələdiyyəsinə üzvdür və eyni məntəqədə səs toplamağa çalışacaq. Necə deyərlər, atası seçki günü öz oğlu üçün "əlindən gələni etməyə çalışacaq".

Eyni zamanda, Çinarlı seçki məntəqəsinin sədri Əliyev Vahid Nəzir oğlunun qızı İsayeva Aytən Vahid qızı və onun həyat yoldaşı, yəni məntəqə sədrinin kürəkəni İsayev Rəşad İsa oğlu da eyni bələdiyyəyə namizəddirlər. Necə deyərlər, məntəqə sədri Vahid Əliyev seçki günü daha çox əziyyət çəkəcək, həm qızı, həm də kürəkəni üçün səs "toplamalı" olacaq.

32 saylı Suraxanı üçüncü seçki dairəsindən Əmircan bələdiyyəsi üzvlüyünə namizədliyini verən Famil İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında Əmircanda bir ailənin tam şəkildə bələdiyyə seçkilərinə hazırlaşdığını qeyd etdi: "Əmircan bələdiyyəsinin sədri Cəfərov Rafael Cəfər oğlu ilə paralel olaraq seçkidə ailə üzvləri də iştirak edəcəklər. R.Cəfərovun qardaşları Rizvan və Ramil Cəfərovlar bələdiyyə seçkilərinə hazırlaşırlar. R.Cəfərovun özü və qardaşları ilə yanaşı, qızı Cəfərli Gülyaz, həmçinin, onun bacısı Səadət Cəfərova da bələdiyyə sədri olmaq niyyətindədirlər. 32 saylı Suraxanı üçüncü seçki dairəsi namizədliyini verən Cəfərli ailəsinin üzvlərini qeydə alıb. Bu məlumatlar Mərkəzi Seçki Komissiyasının bazasında da var".

*"Hazırkı bələdiyyə sədri bələdiyyə büdcəsinin yetərli səviyyədə olmadığını dediyi halda, niyə təkrar namizəd olur, özü də ailəlikcə..."*

F.İbrahimov hesab edir ki, bir ailənin tam şəkildə seçkiyə qatılması ölkədə keçirilən bələdiyyə seçkilərində demokratik mühitin pozulmasına şərait yaradır: "Əmircanın mərkəzi küçələri yaxşı olsa da, qəsəbədaxili yollar bərbad gündədir. Məlumdur ki, mərkəzi küçələri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi təmir edib. Ancaq qəsəbədaxili yollara isə Əmircan bələdiyyəsi cababdehdir. Əmircan bələdiyyəsi küçələri təmir etmək əvəzinə, sədr yenidən seçilmək həvəsinə düşüb, özü də ailəlikcə...

Məlumat üçün bildirim ki, Əmircanın daxili yolları pis gündədir. Yağış yağan kimi Əmircan yolları palçıq əlindən keçilməz olur. Həmçinin, qoca, uşaqların, ümumiyyətlə, sakinlərin istirahəti üçün hər hansı bir şərait yaradılmayıb. Bu problemlərin həll olunması üçün bələdiyyəyə müraciət edəndə büdcədə vəsait olmadığını bəhanə edirlər. Maraqlıdır, bələdiyyənin büdcəsi sizi qane etmirsə, niyə təkrar namizədliyinizi verirsiniz? Qəsəbənin sosial problemlərini həll etmək potensialı yoxdursa, bu işi görən şəxslərə şərait yaratmaq lazımdır".

***Günel CƏLİLOVA***

Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı mühacirətdə olan jurnalist, Müsavat Partiyasının üzvü Yafəz Həsənovu (Əkrəmoğlu) məhkəməyə verib.

# Gülağa Aslanlı Müsavatın Avropa biznesini ifşa edənləri hansı niyyətlə məhkəməyə verdi...



***Məhərrəm Zülfüqarlı:** "Onun Müsavatın Avropa biznesini ifşa edənləri məhkəməyə verməsi anlaşılan deyil"*

G.Aslanlı Yafəz Əkrəmoğlunun Cinayət Məcəlləsinin 147.1-ci (böhtan, yəni yalan olduğunu bilə-bilə hər hansı şəxsin şərəf və ləyaqətini ləkələyən və ya onu nüfuzdan salan məlumatları kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya kütləvi informasiya vasitəsində yayma) maddəsi ilə cəzalanmasını istəyib.

G.Aslanlı bildirib ki, guya Y.Həsənovu Müsavat Partiyasına və ona atdığı şər və böhtanlara görə məhkəməyə verib: "Növbəti addımım Almaniya məhkəməsinə müraciət etmək olacaq".

Məlumat üçün qeyd edək ki, Y.Həsənov Müsavat Partiyasını "mühacir alveri"ndə günahlandırır. O, iddialarında Müsavat başqanı Arif Hacılı və Gülağa Aslanlının bu alverdə fəal iştirak etdiyini bildirir. Nəzərə almaq lazımdır ki, bunun üçün yetərincə əsas da var. Çünki ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Həbs olunanların əksəriyyəti Müsavat Partiyasının fəal üzvləri və Avropadakı təmsilçiləridir. Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən, 3-10 min avroarası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinirlər. Özü də bunu Almaniya polisi müəyyən edib. Sözügedən məsələni Azərbaycan polisi aşkarlasaydı, o zaman Müsavat Partiyası o dəqiqə bunu siyasi motivlə əlaqələndirərdi. Deyəcəkdilər ki, guya bu siyasi sifarişdir. Ancaq qeyd edildiyi kimi, Müsavatın mühacir alverini Almaniya polisi ifşa edib. Belə olan halda, Gülağa Aslanlı Müsavatın Avropa biznesini ifşa edənləri hansı niyyətlə məhkəməyə verir?

*"Görünür, Gülağa Aslanlı kimlərisə qorumaqdan ötrü bu addımları atır"*

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, G.Aslanlının Müsavatın Avropa biznesini ifşa edənləri məhkəməyə verməsi anlaşılan deyil: "Çünki ortada ciddi faktlar var. Faktlarla bağlı da mətbuatda geniş şərhlər verilib. Özü də bu faktlar danılmaz sübutlardır. Müsavat Partiyasının fəalları kimlərinsə xarici ölkələrə getməsi üçün bu cür arayışlar veriblər. Bu, qeyd edildiyi kimi, sübut olunub və bir neçə nəfər deportasiya edilib. Sadəcə olaraq müzakirə doğuran məqamlardan biri də partiyada bunu kimlərin etməsidir. Reallıq ondan ibarətdir ki, bütün sözügedən arayışlar partiya sədrinin imzası ilə gedib. Görünür, G.Aslanlı kimlərisə qorumaqdan ötrü bu addımları atır. Ancaq fakt ondan ibarətdir ki, belə saxta arayışlar var. Mitinqlərdə də dəfələrlə sübut olunub ki, bəzi insanlar polislə bilərəkdən əlbəyaxa olurdular, şəkillər çəkdirirdilər. Məqsəd o idi ki, sonradan onları miqrant kimi xarici ölkələrdə qəbul etsinlər. Saxta arayış da verənlər buna görə məsuliyyət daşımalıdırlar. İndi burada əsas məsuliyyətin kimin üzərinə düşməsini müvafiq qurumlar araşdırmalıdırlar".

***Vidadi ORDAHALLI***

**Qonşularımızdan Rusiya və Türkiyə arasında son dövrlərdə ən müxtəlif, o cümlədən hərbi, iqtisadi, siyasi müstəvidə sıx işbirliyinin yaranması özünü qabarıq surətdə büruzə verməkdədir. Belə görünür ki, ABŞ-ın bu ölkələrə qarşı yeni addımları Rusiya ilə Türkiyəni daha da yaxınlaşdıracaq.**

# ABŞ-ın Rusiya və Türkiyəyə təzə sanksiyaları Ermənistanı panikaya salır, Qarabağ münaqişəsinin həllinə yeni təsirlər...

Ekspertlər isə bunun geosiyasi təsirlərinin də mütləq mənada özünü qabarıq surətdə büruzə verəcəyini proqnozlaşdırır.

Əslində, Yaxın Şərqdə Rusiya ilə Türkiyənin sıx işbirliyi artıq burada proseslərin axarına əhəmiyyətli dərəcədə təsir göstərib. Qarşıdakı dövr ərzində bunun Cənubi Qafqazda da mühüm yeniliklərə rəvac verməsi tamamilə gözləniləndir. Burada diqqəti çəkən əsas məqam ondan ibarətdir ki, region dövlətlərinin Ankara ilə Moskvaya münasibətləri fərqlidir. Ermənistan Türkiyəni, Gürcüstan isə Rusiyanı düşmən gözündə görməkdə davam edir. Yalnız Azərbaycanın hər iki ölkə ilə münasibətləri artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Deməli, Türkiyə-Rusiya yaxınlaşması mütləq mənada Azərbaycanın də maraqlarına tam cavab verir. İstənilən halda, Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxınlaşması, Yaxın Şərqdən əlavə, Cənubi Qafqazda da maraqlı geosiyasi proseslərin meydana gəlməsinə səbəb olacaq. Yaxın tezlikdə artıq bu istiqamətdə mühüm olaylara da şahidlik etmək mümkündür. Çünki ABŞ-ın son addımları bu iki ölkəni biri-birinə daha sürətlə yaxınlaşdırır.



Məsələ burasındadır ki, ABŞ Senatının Xarici Əlaqələr Komitəsi S-400 sistemləri aldığına görə Türkiyəyə, Suriyaya kömək etdiyinə görə isə Rusiyaya qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini qəbul edib. Sənədə görə, onun qəbulundan sonra 30 gün müddətində dövlət katibi Pentaqon və Milli Kəşfiyyat İdarəsinin başçıları ilə birlikdə qanun qəbul olunan ərəfədə və sonrakı dövrdə "Suriya hökumətinin müdafiə planlarını dəstəkləyən əhəmiyyətli maddi, maliyyə və texniki yardımı bilərəkdən göndərən, ixrac edən və ya digər üsullarla göstərən" rusiyalıların siyahısını hazırlayaraq Senata təqdim etməlidir. Bu şəxsləri ABŞ-ın Maliyyə Nazirliyinin sanskiya siyahılarına salacaqlar. Ankaranın S-400 komplekslərini alması sənəddə "Amerikanın düşmənlərinə sanksiyalar vasitəsilə əks-təsir haqda" qanunun tətbiqi üçün səbəb kimi qiymətləndirilib. Qanun layihəsi Amerika silahının Türkiyəyə satışını qadağan edir və Ankaranın Suriyadakı hərbi əməliyyatları üçün silah tədarükünə cavabdeh olan rəsmi şəxslərə qarşı məhdudiyyətlər tətbiq edir. ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri Cim Riç bildirib ki, ABŞ-ın Türkiyəyə tətbiq edəcəyi "ağır sanksiya" sənədi artıq qapıdadır: "Bu sanksiya "ABŞ-ın beynəlxalq təhlükəsizliyi və İŞİD-in canlanmasının qarşısını almaq" adı altında qəbul ediləcək. Sənəddə Türkiyənin, milli müdafiə naziri başda olmaqla, üst səviyyəli məmurlarına sanksiya tətbiq edilməsi ilə yanaşı, Ankaranın Suriyada istifadə etdiyi təxmin edilən silah tədarükünün qadağan olunmasından bəhs edilir. Buraya Rusiyadan alınan S-400-lərlə bağlı digər sanksiya növlərinin əlavə ediləcəyinə də şübhə olmamalıdır". Senator bildirib ki, S-400 məsələsində Türkiyəyə çox səbr göstəriblər:"Artıq yolun sonuna gəldik. Bayram sona çatdı. Digər tərəfdən bilirsiniz ki, Türkiyə S-400 raketlərinə görə F-35 layihəsindəki ortaqlıqdan çıxarılıb. Bəli, Türkiyə 115 ədəd F-35 sifariş verib, onun da 5-nin pulu ödənilib, sifariş hazırlanıb. Lakin S-400 Türkiyədə olduğu müddətdə bu qırıcılar ABŞ-dan ayrılmayacaq". Bununla yanaşı, Birləşmiş Ştatlar Konqresi 2020-ci il üzrə müdafiə büdcəsinə Rusiyanın "Şimal axını -2" və "Türk axını" qaz kəmərlərinə qarşı sanksiyaların tətbiq edilməsini daxil edib. Qeyd olunur ki, sanksiyalar "Avropanın enerji təhlükəsizliyinin təmin olunması" tədbirləri kimi nəzərdən keçirilir. Həmçinin sənəddə Rusiya ilə hərbi sahədə əməkdaşlıq da qadağan olunur.

Beləliklə, ABŞ Rusiya və Türkiyəni sanksiyalarla sıxmağa çalışır. Aydındır ki, belə vəziyyətdə Rusiya və Türkiyənin bir-birilə daha sıx yaxınlaşmasını gözləmək olar. Tərəflərin işbirliyini genişləndirməsi mütləq mənada özünü Qafqazda da büruzə verəcək. Bununla bağlı İrəvanda indi belə bir qorxu var ki, Türkiyə ilə yaxınlaşma fonunda Kreml Ermənistanın təhlükəsizliyinin müdafiəsində ardıcıl olmaya bilər. Erməni ekspertlər hesab edirlər ki, bu, daha çox geosiyasi əhəmiyyətli Türkiyə və Azərbaycan faktoru ilə bağlıdır. Ekspertlər hesab edir ki, region dövlətləri arasında münasibətlərin inkişafı əlaqələrin genişlənməsinə, bölgədə təhlükəsizlik və sabitliyin qorunmasına xidmət edir.

Azərbaycan da məhz bunda maraqlıdır. Sadəcə Ermənistanın prosesdən ciddi narahatlıq duyması özünü getdikcə daha qabarıq formada büruzə verir.

Erməni ekspert Kiro Manoyan bu xüsusda vurğulayır ki, Türkiyə ilə Rusiyanın fəal iqtisadi yaxınlaşması, əvvəldən gözlənildiyi kimi, sıx siyasi əməkdaşlığa çevrilib: "ABŞ-la münasibətləri kəskinləşən bu ölkələr bir-birinə daha çox yaxınlaşır. Belə vəziyyət Ermənistanın bölgədəki mövqeyinə və Ermənistan-Rusiya münasibətlərinə mənfi təsirini daha da artıracaq.

**Məsələn, Türkiyəni itirməmək üçün Rusiya müxtəlif vasitələrlə Ermənistan üzərinə təzyiqi artırar. Azərbaycanda isə ümid edirlər ki, Rusiya - Türkiyə münasibətlərinin dərinləşməsi Qarabağ münaqişənin həllinə müsbət təsir edə bilər. Bakı məhz bunu gözləyir. Bu mənada, baş verənlər Ermənistan üçün qətiyyən münasib deyil".**

***Ramil QULİYEV***

# NATO-Rusiya ali rəhbərlərinin Bakı görüşünün böyük sirlərindən biri açıldı - NATO generalının etirafları... Bakıda yeni görüş olacaq...

**NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı, general Tod Volters Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovla gələn ilin əvvəlində görüşəcəyini bildirib. Görüş məkanı kimi bu dəfə də Azərbaycan paytaxtının seçilməsi istisnalıq təşkil etmir.**

Düzdür, görüş məkanı ilə bağlı tərəflər razılığa gəlməsə də, artıq Rusiya və NATO-nun yüksək rütbəli hərbçilərinin görüş məkanı kimi Bakını seçməsi ənənə halını alıb. Elə Tod Volters özü də artıq Bakıda Valeri Gerasimovla görüşüb. Onların ilk görüşü 2019-cu ilin iyulunda Bakıda olub. Həmin vaxt tərəflər Rusiya ilə NATO məkanının təmas xətti boyu xoşagəlməz hadisələrin qarşısını almaq və ekspertlər səviyyəsində dialoq perspektivlərini müzakirə ediblər. Bununla yanaşı, Avropada və dünyada təhlükəsizlik məsələlərinə, terrorçuluq və dəniz quldurluğu ilə mübarizəyə, Əfqanıstanda, Suriyada vəziyyətə dair fikir mübadiləsi aparılıb. Tod Volters Bakı görüşlərinin tərəflər üçün mühüm əhəmiyyət kəsb etdyini vurğulayır. Onun sözlərinə görə, son aylar ərzində Rusiya Avropada və Aralıq dənizində Amerika hərbi gəmilərini, təyyarələrini narahat etmir. General vurğulayır ki, Rusiya təyyarələri əvvəlki kimi ABŞ və müttəfiqlərinin hərbi gəmilərini, təyyarələrini müşahidə edir: "Lakin son 90 gün ərzində bizim aramızda dənizdə və havada bir dəfə də olsun qeyri-peşəkarlıqla müşayiət olunan insident baş verməyib". O vurğulayır ki, Valeri Gerasimovla Bakıda apardığı ilk şəxsi danışıqlarda bu barədə anlaşma əldə olunub: "Rusiya təyyarələrinin ABŞ hərbi gəmiləri üzərində olduqca aşağıdan uçması və ya Amerika təyyarələrinə təhlükəli həddə yaxınlaşması, risqli manevrlər etməsi mənim general Gerasimovla məsləhətləşmələrimin aparıcı mövzusu idi. O da bundan narahat idi, mən də. Danışıqların nəticəsi havada və ya dənizdə belə qeyri-peşəkar hərəkətlərin sayının sıf;ra endirilməsi oldu". Bunlar isə generalların Bakı görüşlərinin nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini aydın göstərir.

Ekspertlər bildirir ki, Azərbaycan rusiyalı və amerikalı generalların görüşərək normal şəraitdə danışıqlar aparacağı ən münasib, neytral və əlverişli məkandır. Azərbaycan həm ABŞ, həm də Rusiya ilə normal, sürətlə inkişaf edən və tərəfdaşlığa söykənən siyasətin yürüdüldüyü məkan kimi də qəbul edilir. Azərbaycan nə NATO-nun, nə də "MDB NATO-su" adlandırılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Rusiyalı hərbi-siyasi ekspert Oleq Kuznetsov da Bakının görüş məkanı kimi seçilməsinin təsadüfi olmadığını vurğulayır: "Bakının dünya arenasında rolu hər gün daha da artır. Bu, Azərbaycana olan etimadın göstəricisidir. Üstəlik, bu məsələdə ölkənin müstəsna coğrafi mövqeyi, Asiyanın bütün regional yaralı nöqtələrinə, yəni İran, İraq, Suriya, Fars körfəzinin kiçik ölkələrinə və Səudiyyə Ərəbistanına yaxınlığı da rol oynayır. Tərəflərin Azərbaycandan qərəzsiz platforma kimi istifadə etməsində bu ölkənin heç bir bloka qoşulmaması, Rusiya və onun KTMT müttəfiqləri, xüsusən Belarusla olduğu kimi, həmçinin ABŞ-ın NATO müttəfiqləri Türkiyə, Almaniya və İtaliya ilə, Vaşinqtonun müstəqil və əsas strateji müttəfiqi sayılan İsraillə hərbi-texniki sahədə çoxvektorlu əməkdaşlığı da öz rolunu oynayır. Bakı rus və amerikalı hərbi ekspertlərin danışıqlar aparması üçün qarşılıqlı anlaşma və konstruktiv dialoq naminə əlverişli atmosferə malik rahat məkan reputasiyası formalaşdırıb. Bütün bunlar olmasaydı, çətin ki, iki supergücün əsas hərbi rəhbərləri mütəmadi olaraq Bakıda görüşərdi. Onların ünsiyyətində kiçik bir qüsur olsaydı, o zaman keçmiş uğursuzluqları xatırlamamaq üçün danışıqlar məkanını dəyişərdilər".



Bu arada xatırladaq ki, sonuncu dəfə yüksək səviyyəli NATO-Rusiya hərbi dialoqu Bakıda ötən ay baş tutub. Rusiya Baş qərargahının rəisi Valeri Gerasimov Bakıda NATO Hərbi Komitəsinin rəhbəri Stüart Piiçlə danışıqlar aparıb. Ekspertlər bütün bunları vacib sayır. Məsələ burasındadır ki, hazırda dünyanın müxtəlif bölgələrində nüfuz və maraq mübarizəsi davam edir. Beynəlxalq ekspertlər də yeni dünya müharibəsinin addım-addım yaxınlaşdığı haqda həyəcan təbili çalırlar. Elə bu mənzərə fonunda dünyanı qlobal qəzadan xilas etmək üçün hərəkətə keçə biləcək, barışdırıcı, birləşdirici rolu üzərinə götürəcək qüvvəyə və bütün problemlərin müzakirə ediləcəyi məkana ehtiyac var. Bu qüvvə və məkan elə bir yer olmalıdır ki, bütün tərəflərlə uzlaşa bilsin, həmçinin, bütün tərəflərdə nüfuza sahib olsun. Azərbaycan məhz bu missiyanı üzərinə götürür. Azərbaycan təkcə regionda deyil, faktiki olaraq, dünyada təhlükəsizlik baxımından ən əlverişli məkan hesab oluna bilər. Cənubi Qafqazın digər ölkəsi olan Gürcüstan Rusiya üçün sərfəli deyil, Ermənistan isə, ümumiyyətlə, ən primitiv təhlükəsizlik tədbirlərinin belə öhdəsindən gəlmək gücündə deyil. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan dünyanın əsas güc mərkəzləri ilə, yəni həm ABŞ, həm də Rusiya ilə yaxın münasibətlər qurub, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələrini daim inkişaf etdirir.

**Ölkəmiz regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və bütün səyləri regionun inkişafı və rifahına yönəldir. Məhz bunlar fonunda NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı, general Tod Volters ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun gələn ilin əvvəlində nəzərdə tutulan görüşünün yenə Bakıda təşkil olunacağı gözlənilir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan düşməni lərzəyə salacaq yeni silahlar əldə edir - Ermənistanın Rusiyadan qırıcı təyyarə alışı probləmə döndü...

**Məlumdur ki, hələ 2017-ci ilin noyabrında Ermənistan Rusiyadan 100 milyon dəyərində silah-sursat alınması ilə bağlı Moskva ilə müvafiq kredit müqaviləsi imzalayıb. Amma ötən il işğalçı ölkədə baş tutan məlum hakimiyyət dəyişikliyindən sonra Rusiya kreditlə nəzərdə tutulan silah-sursatı Ermənistana çatdırmağa heç də tələsmir.**

Bunu Su-30 SM qırıcı təyyarələri ətrafında baş verənlər də aydın göstərir.

Söhbət ondan gedir ki, ayrılan kreditin əsas hissəsini Ermənistan məhz bu qırıcı təyyarələrin ölkəyə gətirilməsinə sərf etmək istəyir və ötən ildən anons edilirdi ki, Su-30 SM-lər cari ilin sonuna kimi Ermənistana çatdırılacaq. Lakin il başa çatsa da təyyarələrdən xəbər yoxdur və çatıdırılmanın bu il baş tutmayacağına dair məlumatlar da yayılır. Erməni mediası qeyd edir ki, ümumiyyətlə, Su-30 SM-lər Ermənistana gəlməyə bilər. Çünki artıq Rusiya bu təyyarələrin Ermənistana verilməsində maraqlı deyil. Elə rusiyalı ekspert Pavel Felqenhauer də hesab edir ki, Ermənistana belə təyyarələr lazım olsa da, İrəvanın onu alması üçün maliyyə imkanları yetərli deyil. O vurğulayır ki, ayrılan 100 milyon dollar kredit bu cür ciddi vasitələrin əldə edilməsi üçün çox azdır: "Bu məbləğ müasir silah növləri almaq üçün çox kiçik vəsaitdir. Zenit raket kompleksləri, artilleriya vasitələri və təyyarələr almaq istəyirsinizsə, o zaman 10 dəfə çox vəsait lazımdır. Rusiya endirilmiş qiymətlərlə silah tədarük etməyə razılıq veribsə, o zaman çox ehtimal ki, ən müasir silah və texnika növləri tədarük edilməyəcək. Bunlar daha ucuz olan hansısa şəkildə yenilənmiş sistemlər ola bilər. 100 milyon dollar hesabına böyük sayda müasir hərbi texnika və silah əldə etmək mümkün deyil. Ermənistanda ciddi aviasiya yoxdur. Ermənistan bilməlidir ki, müasir qırıcı təyyarələr çox bahalıdır. Amma bax, Azərbaycanın bunu almağa pulu var və istəsə, Rusiya onu satmağa hazırdır".

Məsələnin maraq doğuran başqa bir tərəfi də var. Hesab edilir ki, Ermənistan haradansa pul tapıb həmin təyyarələri alsa belə, onu istismar edə bilməyəcək. Səbəb də müvafiq infrastrukturun yoxluğudur. Elə erməni ekspert Karen Vrtanesyan da bildirir ki, Su-30 SM-lər alınsa belə, onun istifadəsi asan olmayacaq: "Su-30-lar döyüş tapşırıqlarının həyata keçirilməsi halında ciddi üstünlüklər verərdi, lakin aerodrom şəbəkəsi yaratmaq zərurəti meydana çıxacaq. Ermənistanda isə bunun edilməsi çətin məsələdir". Onun sözlərinə görə, quru qüvvələrinin raketləri və hava qüvvəsi arasındakı mübarizə dünyada on illərdir davam edir: "Haqqında danışılan 4 Su-30 SM zəruri saydır. Amma onun Ermənistana çatdırılıb-çatdırılmayacağı hələ dəqiq məlum deyil. Digər tərəfdən alınsa belə, o təyyarələrin burada saxlanılması xərcləri ilə bağlı problemlər yaranır". Ekspertin sözlərinə görə, Su-30 SM ilə bağlı xərclər hesablanıb, lakin problem bununla həll edilmir, çünki istismarla bağlı çoxlu sayda problemlər var:

"Bu halda aerodromlar şəbəkəsi yaratmaq lazımdır. Azərbaycan son 10 ildə hərbi hava limanları şəbəkəsini kifayət qədər inkişaf etdirib, yeni tikilmiş hava limanlarının yaxınlığında bir neçə xətt var". Vrtanesyan bildirib ki, Azərbaycan daha uzun uçuşlar həyata keçirməyə yardım edən aerodromlara sahibdir və bu aerodromlar cəbhə xəttinə yaxındır:"Eyni formada biz də həm açıq, həm də gizli aerodromlara malik olmalıyıq, bu kifayət qədər ciddi xərclərlə bağlıdır. Hələlik isə bu xərcləri qarşılaya bilmirik. Deməli, Su-30 SM-lərin gəlişi reallaşsa belə, bu heç nəyi dəyişməyəcək. Azərbaycan isə indiki şəraitdə malik olduğu aerordromlar və hərbi büdcəsi sayəsində bu qırıcılara bizdən tez sahib olmaq imkanındadır".

Bu arada xatırladaq ki, Rusiya hərbi dairələri dəfələrlə Azərbaycana Su-30 SM, hətta Su-35 təyyarələrini belə satmağa hazır olduqlarını bildiriblər. Həmin təyyarələr isə Suriyada Rusiya tərəfindən aparılan əməliyyatların gedişində özünü doğruldub. Ümumiyyətlə, Azərbaycanın gələn il həmin təyyarələrin müəyyən sayda alışını həyata keçirməsi də istisna olunmur. Çünki məlumdur ki, Azərbaycan Rusiyadan yeni döyüş sursatı almağı düşünür. Hələ bu ilin əvvəlində Rusiyanın "RİA Novosti" xəbər agentliyi məlumat yaymışdı ki, Azərbaycan Rusiya ilə yeni silah müqavilələri bağlamaq istəyir. Ötən ay da Azərbaycan Xarici İşlər Nazirliyi oxşar bəyanatla çıxış edib. Gələn ilin hərbi büdcəsində isə məhz 1 milyard dollara yaxın vəsaitin yeni silah alışına sərf edilməsi nəzərdə tutulur. Belə ki, Azərbaycanda 2020-ci ilin dövlət büdcəsinin layihəsinə görə, bütün dövlət büdcəsi xərcləri 1.7% artdığı halda, müdafiə xərclərinin büdcəsi xeyli, yəni 20.9% artıırılmaqla 2.267 milyard dollara çatıb. Bunun 945 milyon dolları silah alışı və hərbi-sənaye sərmayəsi üçün nəzərdə tutulub. Su-30 SM və Su-35 təyyarələrinin qiyməti isə 60-70 milyon dollar arasında dəyişir. Bu isə o deməkdir ki, Azərbaycan istəsə, ilk mərhələdə ən azı 10 belə təyyarəni almaq imkandadır. Bundan başqa, Azərbaycanın Rusiyanın 5-ci nəsil qırıcılarından olan Su-57 təyyarəsini almaq imkanları da yüksək dəyərləndirilir. Xatırladaq ki, Su-30SM 4-cü nəsil təyyarəsi, Su-57 ondan sonrakı mərhələ olan 5-ci nəsildəndir. Eyni zamanda Su-57 daha müasir texnologiyalar əsasında hazırlanıb. Su-57-nin başlıca fərqli cəhəti radarlarda daha zəif görünməsidir. Məhz radarlarda zəif görünmə beşinci nəsil qırıcıları xarakterizə edən başlıca xüsusiyyətlərdən biridir.

Bundan əvvəl isə Rusiyanın Birləşmiş Aviatikinti Korporasiyası bəyan edib ki, Azərbaycana artıq Su-30SM, Su-35, MiQ-35 təyyarələri təklif olunsa da, Bakı seçim etməyib. Rusiya tərəfi adıçəkilən təyyarələrin Azərbaycana ixracı üçün danışıqlara hazır olduğunu bəyan edib. Bunlar isə o deməkdir ki, Azərbaycan istədiyi halda həmin təyyarələrdən ala bilər. İndiyə qədər isə yeni döyüş təyyarələrinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının (PUA) alınması, ölkədə PUA istehsalının yaradılması, aviaparka daxil olan təyyarələrin və helikopterlərin modernləşdirilməsi, hərbi aerodromların yenidən qurulması nəticəsində Azərbaycan hərbi aviasiya imkanlarına görə Cənubi Qafqaz və MDB məkanında ön yerlərə yüksəlib. Perspektiv plana əsasən, qarşıdakı dövr ərzində Azərbaycanın aviaparkına Pakistan-Çin birgə istehsalı olan "JF-17 Thunder", Çexiya istehsalı olan Aero L-159 təyyarələrinin, Türkiyə və CAR istehsalı olan zərbə helikopterlərinin, həmçinin silahlandırılmış PUA-ların daxil edilməsi gözlənilir. Artıq Pakistan tərəfi ilə Azərbaycanın "JF-17 Thunder" təyyarələrinin alınmasına dair ilkin razılaşmanın əldə edilməsilə bağlı məlumatlar da yayılıb.

Bu gün Azərbaycana "Eurofighter" Avropa konsorsiumu "Typhoon", İsveç "Gripen" döyüş təyyarələrini də təklif edir. İsveçin Hərbi Hava Qüvvələrinin komandanı Mats Helqesson "Gripen" təyyarələrinin mühüm üstünlüklərə malik olduğunu bildirir. Onun sözlərinə görə, Rusiya qırıcıları Amerika qırıcılarından manevr üstünlüyünə və təhlükəli tryukları yerinə yetirməsinə görə əfsanəvi status qazanıb. Amma İsveç bu işin sirrini açıb.

Belə ki, bütün müasir qırıcılar radioelektron müharibə aparır, "Gripen" təyyarələrində isə daha bir üstünlük var. Bu, təyyarənin radiosiqnalları boğmaq imkanlarıdır. Hazırda Azərbaycan Qərb ölkələri ilə də uğurlu hərbi-texniki əməkdaşlıq qurmaqdadır. Bu baxımdan İsveçlə "Gripen" qırıcılarına dair danışıqlarda da Bakı istədiyi nəticəni əldə edə bilər. Rusiyanın "Voennoe obozrenie" nəşri də yazır ki, Bakı son dövrlərdə Qərb ölkələri ilə uğurlu əməkdaşlıq edir, Fransadan, İtaliyadan, Çexiyadan və digərlərindən hərbi məhsullar alır. Nəşr bildirir ki, Azərbaycan bu fonda İsveçdən də istədiyi təyyarələri almaq imkanı qazanır. Qeyd olunur ki, Bakı həmin qırıcıları alsa, Azərbaycan Ermənistan üzərində daha ciddi üstünlük əldə edəcək. Rusiya nəşri Azərbaycanın son illər Hava Hücumundan Müdafiə qüvvələrini də təkmilləşdirdiyini, müxtəlif tipli çoxsaylı hava hücumundan müdafiə vasitələri əldə etdiyini və ya sovet ordusundan miras qalan texnikanı moderləşdirdiyini yazır. Bildirilir ki, Azərbaycanın hava hücumundan müdafiə vasitələri nəinki ölkə ərzisində, eləcə də qonşu ölkələrin üzərində uçan hava hədəflərini vurmaq imkanındadır. Qeyd olunur ki, Bakı indiyə qədər də Rusiyadan aldığı silahlarla böyük üstünlük əldə edib. Elə indi də Rusiya Azərbaycan silah-sursatının ən böyük təchizatçısıdır: İndiyə qədər Azərbaycana ən müxtəlif silahlar verilib. Söhbət "Smerç" YARS-ları, TOS-1 ağır odsaçan artilleriya sistemləri, başqa müasir silahlar da daxil olmaqla mühüm hərbi texnika, sistemlər, avadanlıqlardan gedir. Azərbaycan həm də regionda ən güclü radar sistemlərinə malik ölkələrdən biridir.

Son illər Azərbaycan Ukrayna və Belarusla yanaşı, İsraildən üçkoordinatlı ELM-2288 AD-STAR və ELM-2106NG radilokatorlarını əldə edib. Bu radiolokatorlar zenit-raket komplekslərinin hərəkətini idarə etməklə yanaşı, qırıcıları da yönləndirir, hava trafikini nizamlaya bilir. ELM-2288 AD-STAR kompleksi 480 kilometr məsafədən hədəfləri qeydə alıb izləyir.

Azərbaycan ərazisində İsrail istehsalı olan erkən raket xəbərdarlığı sistemi "Green Pine" fəaliyyət göstərir. Bunlar artıq Bakıya böyük üstünlüklər qazandırıb".İndi diqqət ona yöənldilir ki, belə üstünlüyə malik Azərbaycan gələn il ərzində yeni silah alışına da böyük həcmdə vəsait sərf edəcək. Məhz belə vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli Ermənistana Azərbaycan tərəfindən kifayət qədər sərt zərbələrin endirilməsinə imkan verir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan Ermənistanın sabiq prezidentlərini bir-bir məhv etməyi hədəfləyir...

**Ermənistanda hakim maydansevərlər və qrantyeyənlər qrupu korrupsiyaya qarşı mübarizə adı altında respublikanın sabiq rəhbərliyinə qarşı səlib yürüşünü davam etdirir. Lakin paşinyançıların qəribə şıltaqlığına görə zərbəyə sırf "Qarabağ klanı"nın nümayəndələri tuş gəlirlər.**

Məlum olduğu kimi, keçmiş prezident Köçəryan 2008-ci ilin martında seçkiləri tam uduzmuş prezidentliyə namizəd Ter-Petrosyanın (səslərin 21,5 faizini toplayıb) tərəfdarları tərəfindən təşkil edilmiş "Yerevan-maydan"ın zorla qovulmasına görə "konstitusiya quruluşunun devrilməsi" kimi cəfəng bir ittihamla həbs edilib. Müstəntiqlər ona 3 milyon dollar məbləğində rüşvət işini "sırıya" bilməyiblər.

Köçəryan Vovayeviçin qərarı ilə istintaq təcridxanasına qayıdıb. İndi də Paşinyan qıllı barmaqlarını Ermənistanın üçüncü prezidenti Serj Sarkisyana doğru uzatmaq qərarına gəlib. Sarkisyan fermerlərə dəstək milli layihəsi çərçivəsində dövlət üçün dizel yanacağının tədarükü tenderi ilə bağlı epizodda təqsirləndirilir. Tender zamanı yaranmış vəziyyət təkcə Ermənistan üçün deyil, bütün postsovet məkanı üçün çox səciyyəvidir. Hərracda dizel yanacağına ən aşağı qiymətlər təklif etmiş firma yerinə, Sarkisyanın hansısa dostu, dizel yanacağını baha qiymətə itələyən şəxs qalib gəlib. Nəticədə dövlətə bir milyon dollardan çox ziyan dəyib.

Şəksiz ki, bu hadisə sabiq prezidentə başucalığı gətirmir, lakin Sarkisyana cinayət işi açılmasını birbaşa Ermənistan Konstitusiyasının maddəsi qadağan edir. Həmin maddəyə görə, dövlətin birinci şəxsləri keçmiş işlərinə görə cəzalandırıla bilməz. Paşinyanın ətrafındakı ekspertlər donquldanaraq deyirlər: "Nə olsun, bu, boş formalizmdir: biz impiçment haqqında müddəadan istifadə edərək onu cinayət məsuliyyətinə cəlb edəcəyik". Burada başını tutmayasan, nə edəsən. İndiyədək impiçment yalnız fəaliyyətdə olan prezidentə şamil olunurdu. İstefada olan şəxsə impiçment elan etmək hətta nonsens deyil, sözün həqiqi mənasında, marazmdır. Əgər Paşinyan və onun ətrafının Sarkisyanı korrupsiyaya görə cəzalandırmaq üçün əlləri bu dərəcədə güclü gicişirsə, onda konstitusiyaya düzəlişlər edin. Hərçənd bu addım, bir növ, "arılar bala qarşı" mətləbini xatırladır. Axı Paşinyan ömrü boyu Baş nazir vəzifəsini tutmayacaq, onun özünü də nə vaxtsa elədiyi saysız-hesabsız səhvlərə görə divara qısnayacaqlar. Onda hesab edək ki, bu maraqlı ssenari heç bir işə yaramır. Sonunda Sarkisyan tək deyil ki. Sabiq prezidentin bir vaxtlar ürək genişliyi nümayiş etdirib yardım göstərdiyi tərəfdarları və "xaç övladları" mütləq azadlıqda dolaşırlar. Nə edirsinizsə edin, araşdırın, sübuta yetirin, həbsə atın. Lakin məlum olduğu kimi, Paşinyanın bəzən qanunun tələblərini və nəzakət qaydalarını büsbütün inkar edən daosu var. Elə götürək Vovayeviçin may ayında öz tərəfdarlarına respublikanın məhkəmə orqanlarının fəaliyyətini dayandırmaq çağırışını. Axı hakimlər maydan Baş nazirinin istəyinə görə özlərini bu-raxmaq istəmədilər. Qanuna görə isə bu "inqilabçının" və onun ətrafının hakimləri tutduqları vəzifələrindən azad etmək səlahiyyəti yoxdur: odur ki, "qoy onların öhdəsindən xalq özü gəlsin". Bəs bu kabab sevən qisasçı Baş nazir dizel yanacağı ilə bağlı çoxdankı işə görə Serj Sarkisyanı nə üçün küncə sıxışdırıb? Axı qanuna əsasən ona çırtma vurmağa da haqqı yoxdur. Özü də nə üçün məhz indi? Axı sonra keçmiş baş nazir olmuş keçmiş prezident hakimiyyəti, faktiki olaraq, Paşinyana peşkəş edib. Belə bir hiss yaranır ki, qisasçılıq Paşinyanın bütün səbəb və əməllərinə o dərəcədə sirayət edib ki, o, sosial ədalət və bizdə toxunulmaz adamlar yoxdur harayı ilə çoxdan mətbəx-kommunal xırdaçılığına və şəxsi intiqam hisslərinə yuvarlanıb. Sarkisyana gəldikdə isə 2008-ci ilin fevral seçkilərində məhz o, öz opponentlərini, o cümlədən, bir vaxtlar Paşinyanın buyruq uşağı kimi yanında işlədiyi Levon Ter-Petrosyanı geridə qoyaraq Ermənistanın üçüncü prezidenti olub. Yəni, formal olaraq, Sarkisyanın "Bir mart" işinə də aidiyyəti var və deməli, o, Paşinyanın "konstitusiya quruluşuna sui-qəsd"ə görə həbsxanada oturmasında "günahkardır". Görünür, Paşinyan yaxın vaxtlara qədər Sarkisyandan hesab sormağa tələsməyib və onu, bir növ, desert üçün saxlayıb, yeni əvvəlcə daha çox nifrət etdiyi Robert Köçəryanla haqq-hesab çürütmək istəyib. Hər halda, Paşinyanın baş nazirliyi hələ müddətinin ortasına da çatmayıb, yeni administrasiyasının nəzərəçarpan uğurları da yoxdur, beləliklə, öz reytinqini gücləndirmək üçün namünasib olan və sıfır dəstəyə malik eks-prezidenti nümunəvi-nümayişkəranə tənqid vasitəsi kimi döyərək ehtiyatda saxlamaq heç vaxt əngəl deyil. Lakin Sarkisyan siçandan da sakit süpürgənin arxasında gizlənmək və keçmiş xatirələri oyatmamaq yerinə, noyabrın sonunda birdən-birə Xorvatiyanın Zaqreb şəhərində keçirilən Avropa Xalq Partiyasının sammitində Paşinyanı və ətrafını sərt tənqid atəşinə tutaraq özünü zərbə altında qoyub.

"Populistlərin hakimiyyətə gəlməsində" öz üzərindəki məsuliyyəti inkar etməyən Sarkisyan Paşinyana konstitusiya və demokratiya normalarının pozulmasını, şəxsi motivlərlə siyasi təqibləri və cəmiyyətin həyatının yaxşılaşdırılması istiqamətində şübhəli uğurları da xatırladıb, hətta Yerevanda qərar verməli səlahiyyəti olan kimlərisə narahat edən bir-iki siyasi bəyanatlar da verib. Birincisi, Sarkisyan Ermənistanla Aİ arasında yaxşı münasibətlərin inkişafının əsasının onun prezidentliyi dövründə qoyulduğunu bəyan edərək ən yaralı yerə toxunub. İkincisi, Bakıya mesaj verilib ki, "Artsax (Dağlıq Qarabağ) heç bir vaxt Azərbaycanın tərkibinə qaytarılmayacaq". Üçüncüsü, Paşinyanı Avropa mühitində xırda və çox qisasçı diktator kimi təqdim edərək evin sirrini bayıra çıxarıb. MXAT sayağı pauza gözlədikdən sonra təzadlara istinad etməklə Paşinyanın tərəfdarları Sarkisyana cavab hazırlayıblar. Eks-prezidentin ünvanına ittihamlar səsləndirməklə yanaşı, ictimaiyyəti Ermənistanın yeni İnformasiya, idman və gənclər siyasəti nazirinin korrupsiyaya görə saxlanması xəbəri ilə sevindiriblər. Guya, "inqilab hökuməti




hər kəsə qarşı sərt və ədalətli münasibət sərgiləyir". Hərçənd, nə qədər riyakarlıq etsələr də, Paşinyan tərəfdarları teatr tamaşası quruluşunu gizlədə bilməyiblər. Paşinyan administrasiyasına qarşı qanuni sual meydana çıxır: "bizdə mühakimə oluna bilməyəcək məmurlar yoxdur" tezisinin bəyan olunmasına rəğmən, nədən Vovayeviçin keçmiş rəisi və himayədarı, eks-prezident Levon Ter-Petrosyan cidd-cəhdlə zərbə altından çıxarılıb? Paşinyanın tərəfdarlarının buna da cavabı var: guya Ter-Petrosyan postsovet Ermənistanının birinci prezidenti olsa da və onun hakimiyyəti dövründə bir çox mənfi hadisələr baş versə də, amma bunlar çoxdan olub, artıq demək olar ki, həqiqətə uyğun deyil. Üzərindən iyirmi ildən çox keçib - bütün yararlılıq müddətləri bitib və hər şeyin üzərini toz basıb.

**Təbii ki, təşkilatçısının və ilhamvericisinin seçkilərdə uduzan Ter-Petrosyan olduğu 2008-ci ilin mart hadisələrinə görə 1 nömrəli eks-prezidenti heç bir məsuliyyətə cəlb etməyəcəklər, çünki onun ardınca Paşinyanın bir çox silahdaşları da yedəklə tələyə düşə bilərlər. Paşinyan özü, əfsuslar olsun ki, 11,5 il əvvəl baş vermiş hadisələrə görə məhkum edilməyəcək.**

Bir şəxsi bir əmələ görə iki dəfə məsuliyyətə cəlb etmək qanunla qadağandır, hərçənd bəzi işbazlar üçün belə lazımdır. Heç olmasa "inqilabi məqsədəuyğunluq" mülahizəsinə əsasən...

***Baki-xeber.com***

# Almaniya televiziyasında şok ittiham - erməni mafiyası Ermənistan hakimiyyəti ilə bağlıdır

**Almaniyanın MDR ictimai televiziyası bu ölkədə erməni mafiyasının fəaliyyətinə dair yeni məlumatlar yayıb və sənədli film efirə verilib. "Trend"-in məlumatına görə, müəllifləri Aksel Hemmerlinq (Axel Hemmerling) və Lüdviq Kendzia (Lüdwig Kendzia) olan məlumatlarda müxtəlif illərdə Türinqen federal torpağının Veymar, Erfurt və Ayxsfeld şəhərlərində erməni mafiyasının iştirakı ilə baş vermiş silahlı qarşıdurmalar, habelə müxtəlif mafiya klanları arasındakı uzunmüddətli münaqişələrdən bəhs olunur.**

Qeyd olunur ki, Almaniyanın müxtəlif regionlarının yerli hüquq-mühafizə orqanlarının 58 000 səhifəlik sənədlərinin araşdırılması nəticəsində sözügedən silahlı qarşıdurmaların bir-birindən ayrı cinayət hadisələri deyil, mafiya klanları arasında uzun müddətdən bəri davam edən "müharibələrin" təzahürləri olduğu məlum olub.

Sözügedən atışmalarda müxtəlif mafiya başçılarının iştirakının müəyyən edildiyi, Berlin və Şərqi Almaniyada yerləşən erməni mafiya qruplarının Belçika və Fransadakı "qanuni oğrular" tərəfindən idarə olunduğu, postsovet məkanında (Rusiya, Ermənistan, Gürcüstan, Ukrayna) fəaliyyət göstərən tanınmış "qanuni oğrular"ın vasitəçilik səyləri ilə erməni mafiya qruplarının cəlb olunduğu münaqişələrdə nisbi "sülhə" nail olunduğu qeyd olunur.

Erməni mafiya klanlarının iştirakı ilə 2013 və 2014-cü illərdə müvafiq olaraq Veymar və Erfurt şəhərlərində baş vermiş insidentlərin kökündə milyonlarla avro dəyərində olan avtomobil biznesi, eləcə də Almaniyadan Polşaya daşınan oğurluq avtomobillərin orada hissələrə bölünməsindən sonra yenidən Almaniyaya gətirilərək satılmasına nəzarət uğrunda gedən mübarizənin dayandığı göstərilir.

Ayxsfeld şəhərindəki hadisələr isə 20 ildən artıq bu şəhərdə yaşayan və Almaniya, Fransa, Belçika və Ermənistanda geniş qohumluq əlaqələrinə malik bir erməni sülaləsinin daxilində olan qarşıdurmaların nəticələri kimi təqdim olunur. Ailədaxili çəkişmələrin hələ 2005-ci ildə ölümlə nəticələnən qanlı toqquşmalarla başlandığı, 2017 və 2018-ci illərdə yenidən qanlı toqquşmalarla müşayiət edildiyi, polis tərəfindən bununla bağlı bir neçə əməliyyatın keçirildiyi və həbslərin baş tutduğu vurğulanır. Hüquq-mühafizə orqanlarının daxili sənədlərinə istinadən bildirilir ki, sözügedən ailə Belçika və Almaniya arasında avtomobil ticarətini həyata keçirir və Almaniyanın Türinqen, Saksoniya və Saksoniya-Anhalt federal torpaqlarına gətirilən avtomobillərin içində qanunsuz olaraq narkotik maddələrin keçirildiyinə dair dəlillər mövcuddur. Klan üzvlərinin spirtli içkilərin qeyri-qanuni ticarəti ilə məşğul olduqları da bildirilir. Ayxsfelddə mövcud olan mafiya klanının 2013-2014-cü illərdə Veymar və Erfurtdakı silahlı qarşıdurmalarda iştirak edən mafiya klanları ilə əlaqəli olmadığı və tam müstəqil fəaliyyət göstərdiyi bildirilir.

27.11.2019 tarixində efirə getmiş "Almaniyada xaç ataları: erməni mafiyası və qanuni oğrular" başlıqlı sənədli filmdə (https://www.mdr.de/tv/programm/video-359496_zc-12fce4ab_zs-6102e94c.html) mütəşəkkil cinayətkarlığın "qanuni oğru" modelinin mahiyyəti və quruluşu barədə məlumat verilir, Almaniyada və Avropada bu tip mafiya quruluşuna malik olan erməni cinayətkar dəstələrdən bəhs olunur. Filmdə Almaniyada erməni mafiyasına qarşı həyata keçirilmiş FATİL əməliyyatı barədə məlumat verilir, Almaniyadakı erməni mafiyasının İtaliya mafiyası ilə "biznes" (saxta pul əskinasları, narkotik maddələrin ticarəti) əlaqələrinə dair faktlar təqdim olunur, yaxınlarda İspaniyada da erməni mafiyasına qarşı böyük əməliyyatın həyata keçirildiyi qeyd edilir, erməni mafiya klanlarında güclü iyerarxiyanın olduğu və bu şəbəkələrin qanunsuz miqrasiya yolu ilə daim genişləndirildiyi bildirilir.

Filmdə, həmçinin, Ermənistanın on illərdən bəri korrupsiya ölkəsi və kleptokratiya olduğu, erməni mafiya başçılarının Ermənistanın keçmiş hakimiyyəti ilə əlaqəli olduqları və yeni hakimiyyətin "qanuni oğrulara" qarşı müharibə elan etdiyi bildirilir.

Filmdə prof. Avetis Sadoyan kimi təqdim olunan 10 il əvvəl Almaniyada sığınacaq tapmış siyasi qaçqına da söz verilir. O, Ermənistan cəmiyyətində cinayətkarlığın geniş vüsət almasından və kleptokratiyanın adi vətəndaşlara mənfi təsirlərindən danışır. Bildirir ki, vətəndaşlar adətən uğurlu insanlardan örnək götürür və Ermənistanda belə uğurlu insanlar məhz cinayətkar ünsürlərdir. Qeyd edir ki, bir araşdırmanın nəticələrinə görə, Ermənistanda kişilərin 95%-i öz nitqlərində cinayətkar jarqondan istifadə edirlər. O, Ermənistanda baş vermiş "inqilabın" sözügedən mentalitetə son qoymasına çağırış edir. A.Sadoyan eyni zamanda mafiya strukturları vasitəsilə Ermənistandan milyardlarla pulun çıxarıldığını iddia edir və Almaniyanın hüquq-mühafizə orqanlarını həmin pulların Ermənistan əhalisinə geri qaytarılması üçün yardım etməyə çağırır.

Filmdə, eyni zamanda, Ermənistandakı "inqilabın" Almaniyada çox şeyi dəyişmədiyi və bu xüsusda Aşot Smbatyanın 2015-ci ildən bəri Ermənistanın bu ölkədəki səfiri olaraq qaldığı bildirilir. A.Smbatyan "hiyləgər insan" adlandırılır.

Bildirilir ki, Erfurtdakı atışma (2014-cü il) və MDR-in bu barədə məlumat verməsindən dərhal sonra o, gözlənilmədən Türinqenə səfər edib və səfər zamanı bu torpağın baş naziri ilə yanaşı, təkidli sorğusu əsasında daxili işlər naziri ilə də görüş keçirib və ona Türinqen torpağı və Ermənistan arasında təhlükəsizlik sahəsində əməkdaşlıq təklif edib. Məlumat verilir ki, erməni səfirin bu hərəkətləri Almaniyanın Federal Kriminal İdarəsi (BKA) və Türinqen Torpağının Kriminal İdarəsi (LKA) tərəfindən həyəcanla qarşılanıb. Səfirin öz hərəkətlərini ictimaiyyət qarşısında müzakirə etmək istəmədiyi və həmçinin MDR və Der Spiegel KİV-lərini məhkəməyə verdiyi (bax: SBRL/1437/19 saylı, tarixli məktubumuz) və bu məhkəmə prosesinin hələ də davam etdiyi barədə məlumat verilir.

Qeyd edək ki, MDR televiziyası və Der Spiegel jurnalı Almaniyada mövcud olan erməni mafiyasının fəaliyyətini birgə araşdırırlar və ötən ilin noyabrından bəri bu mövzuda məlumatlar dərc edirlər. Məlumatlarda, o cümlədən, Ermənistanın Almaniyadakı səfiri A.Smbatyanın da mütəşəkkil cinayətkarlıqla əlaqələrinin olduğu qeyd edilib. Eyniadlı sənədli film hələ bir il əvvəl, 07.11.2018 tarixində efirə getməli idi və o zaman Ermənistan səfirinin iddiası əsasında Berlin məhkəməsi tərəfindən filmdə erməni səfiri barədə verilən faktların yoxlanılmasınadək filmin efirə getməsi müvəqqəti olaraq qadağan edilib. Film, görünür, hazırda erməni səfiri barədə səsləndirilməli olan faktların ixtisar olunduğu formada efirə verilib.

Filmdə, həmçinin, erməni mafiyasının ictimaiyyətə yaxşı məlum olan üzvləri barədə məlumat verilir. Peşəkar boksçular Murat Karo və Artur Abrahamın adının istintaq sənədlərində hallandığı qeyd edilir, Bundestaqın deputatları Albert Vayler və Manfred Qrundun (Qeyd: hər iki deputat Ermənistanın lobbiçisi və Azərbaycanın "arzuolunmaz şəxslər" siyahısındadırlar), eləcə də Ermənistan səfirinin iştirakı ilə Almaniya-Ermənistan Forumunun yaradılması mərasimində, habelə sözügedən deputatların dəvətilə Almaniyanın bölgələrində Ermənistan səfiri ilə birlikdə keçirilən tədbirlərdə yuxarıda sözügedən cinayətkar ünsürlərin iştirak etmələri barədə faktlar təqdim olunur. Hər iki deputatın Bundestaq ofislərində erməni əməkdaşlarının çalışdığı (Qeyd: A.Vaylerin ofisində Alla Serobyan, M.Qrundun ofisində isə Andronik Aslanyan çalışır), bunlardan birinin daşınmaz əmlak biznesi ilə məşğul olduğu (Qeyd: M.Qrundun əməkdaşı A.Aslanyanın Elase Real Estate adlı daşınmaz əmlak şirkəti mövcuddur) bildirilir.



**Filmdə müsahibə verən Bundestaqın deputatı, Almaniya-Ermənistan Forumunun prezidenti A.Vayler Foruma birbaşa toxunmadığı üçün erməni mafiyası mövzusunun Forum daxilində rəsmi olaraq müzakirə olunmadığını, amma sözügedən xəbərlərə dair Ermənistan səfiri ilə söhbət etdiyini və ona Forum üzvlərindən kiminsə cinayət törətdiyi bəlli olarsa, araşdırmalara və həmin şəxsin Almaniyadan deportasiya olunmasına yardım edəcəklərini bildirdiyini qeyd edir.**

# Ermənilər yazı sənəti oyunu ilə UNESCO-nu da aldatdılar...

**Tarixdə qədim xalqlar çox olub, o xalqların bəziləri etnos olaraq məhv olsalar da, onların dilləri, yazı mədəniyyətləri, əlifbaları bu gün də yaşayır. Qədim latınlar, hetlər və digər xalqlar bu taleni yaşayıblar. Dünən meydana gələn və müxtəlif millətlərin qarışığından əmələ gələn, hibrit etnos olan haylar (ermənilər) çoxdan bəridir özlərini qədim xalqların "köçünə" qatmaq iddialarını ortaya qoyurlar.**

**Buludxan Xəlilov:** *"Qondarma erməni əlifbasının, yazı mədəniyyətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi böyük tarixi ədalətsizlikdir"*




*"...bu quruma müraciət edərək onu verdiyi qərarı dəyişdirməyə çağırmalıyıq"*

Saxta erməni əlifbası və qondarma erməni yazı mədəniyyəti məsələsi uzun illərdir ermənilər tərəfindən beynəlxalq gündəmə buraxılıb. Əlbəttə, bir sıra nüfuzlu alimlər erməni əlifbası kimi təqdim edilən əlifbanın tamamilə saxta olduğunu, hətta onun başqa xalqlardan oğurlandığını sübut ediblər. Bir sıra nüfuzlu alimlərin qənaətincə, ermənilər "qədim əlifba"larını "Avesta"dan, müasir əlifbalarını isə Efiopiyadan oğurlayıblar. Dünyada bu fakt ciddi dəlillərlə sübut olunsa da, yenə də erməni lobbisi və bəzi beynəlxalq qurumların ədalətsiz mövqeyi nəticəsində "qədim erməni yazı mədəniyyəti" UNESCO-ya ayaq aça bilib.

Belə ki, Ermənistan mətbuatının yazdığına görə, erməni yazı mədəniyyəti UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu barədə, həmçinin, Ermənistan Xarici İşlər Nazirliyinin "Facebook" səhifəsində də məlumat verilib. Qeyd edilib ki, 11 dekabr tarixində keçirilən UNESCO-nun 14-cü sessiyasında Ermənistanın bu barədə müraciətinə baxılıb və bununla bağlı qərar qəbul edilib.

Ermənistanın "qədim yazı mədəniyyəti" uydurmasına UNESCO-nu inandırması həqiqətən də təəccüb doğurur. Mədəniyyətinin tam hissəsi başqa xalqlardan oğurluq olan bir toplumun oğurluqlarına beynəlxalq təşkilatların göz yummasının özü böyük ədalətsizlikdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) kafedra müdiri, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan bu məsələyə öz etirazını bildirməlidir. Onun sözlərinə görə, ermənilərin heç bir qədim əlifbası yoxdur və Mesrop Maştosun da "yaratdığı əlifba" tamamilə saxtakarlıq nümunəsi olub. Onun sözlərinə görə, ermənilər qədim "Avesta yazısı"nı da "erməni yazısı" kimi mənimsəyiblər. B.Xəlilovun dediyinə görə, saxta Mesrop Maştos adından istifadə edən ermənilərin, əslində, qədim əlifbalarımızdan olan "Avesta" əlifbasını oğurlaması faktı nəinki bizi, hətta bütün dünyanı narahat etməlidir. "Ermənilər "qədim əlifbasını" bizdən, müasir əlifbasını isə Efiopiya xalqından oğurlayan bir toplumdur, bunu bütün dünya bilir, amma bunu bilə-bilə erməni əlifbasının "qədim yazı mədəniyyəti" örnəyi kimi UNESCO-ya daxil edilməsi çox mənfi haldır. Buna təəssüflənirəm. Biz xalq olaraq erməni saxtakarlığının ifşa edilməsi istiqamətində səylərimizi genişləndirməliyik, özümüz deyib, özümüz eşitməməliyik, yazdıqlarımızı beynəlxalq dillərə çevirib dünyaya yaymalıyıq. Mesrop Maştos adlı dilçinin, tarixçinin olmaması faktdır və bu, erməni uydurmasıdır. Təəssüflər olsun ki, indiyə qədər Mesrop Maştos "erməni əlifbasının yaradıcısı", "əlifba banisi" kimi təqdim olunurdu. Hətta onu milliyyətcə erməni olaraq təqdim edirdilər. Amma indi əsl həqiqət məlum olub. Çünki tarix həmişə müəyyən zaman keçdikdən sonra əsl həqiqəti üzə çıxara bilir. Tarixin gizli qatları açıldıqca məlum olur ki, heç Mesrop Maştos adlı adam olmayıb. Ümumiyyətlə, Mesrop Maştosun şəxsiyyəti də, milliyyəti də, əlifba yaratması da cəfəng bir məsələdir. Əslində, o, əlifbanı yaradan yox, əlifbanı oğurlayan bir addır ki, onu ermənilər uydurub və bu saxta addan istifadə edirlər. Bu gün erməni lobbisinin və onların beynəlxalq qurumlardakı havadarlarının dəstəyilə "qədim erməni yazı mədəniyyəti"nin UNESCO-ya daxil edilməsi faktını pisləməklə yanaşı, xalq olaraq bu quruma müraciət edərək onu verdiyi qərarı dəyişdirməyə çağırmalıyıq və buna nail olmalıyıq. Qondarma erməni əlifbasının, yazı mədəniyyətinin UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi böyük tarixi ədalətsizlikdir. Ermənilər qədim xalq deyillər və onların heç bir əlifbası da yoxdur. Qeyd etdiyim kimi, onların əlifbası oğurluqdur, plagiatdır".

B.Xəlilovun sözlərinə görə, beynəlxalq ictimaiyyəti, o cümlədən də UNESCO kimi təşkilatı Mesrop Maştos nağılı ilə aldadan ermənilər bununla böyük mənəvi cinayətə imza atırlar. B.Xəlilov hesab edir ki, UNESCO-ya müraciət edərək bu qərarın ləğvinə nail olmaq üçün addımlar atmalıyıq. "Hesab edirəm ki, özünü müxalifət adlandıran qüvvələr də bu məsələdə susmamalıdırlar. Onlar təkcə ölkənin daxilində baş verənlərə münasibət bildirməli deyillər, ümumiyyətlə, bu kimi məsələlərə də münasibət bildirməlidirlər. Təəssüflər olsun ki, özünü müxalifət adlandıran qüvvələr ermənilərlə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi qərarlara öz etirazını bildirmirlər. UNESCO "qədim erməni yazı mədəniyyəti"ni Qeyri-maddi mədəni irs siyahısına salıb, amma müxalifət buna etiraz etmir. Bilirsiniz, bu gün bizə qarşı beynəlxalq təşkilatlar ədalətsiz mövqedə dayanıb, bu ədalətsiz mövqenin aradan qaldırılması üçün xalq olaraq mübarizə aparmalıyıq. Erməni lobbisinin apardığı təbliğat, onların beynəlxalq qurumlara yol tapmaları, əlaqə yaratmaları nəticəsində saxta erməni əlifbası "qədim yazı mədəniyyəti" nümunəsi olaraq tanıdılır, amma qəribədir, UNESCO-nun ekspertləri etiraz etmirlər ki, erməni əlifbası oğurluqdur. Halbuki, Azərbaycanla bağlı istənilən fayl təqdim edilərkən onu müzakirələrə çıxarırlar, hər hansı kiçik səhv olsa, onu düzəltdirməyə çalışırlar. Lakin Ermənistan bir yalanla UNESCO ekspertlərinə də kələk gəlib olmayan mədəniyyətini "mövcud mədəniyyət" kimi qəbul etdirir".

**B.Xəlilov hesab edir ki, ermənilərin saxta əlifbalarının bu statusunun ləğv edilməsi vacibdir və bunun üçün gərəkli tədbirlər həyata keçirilməsi lazımdır.**

*İradə SARIYEVA*

# Azərbaycan polisindən misilsiz dünya ilki - humanizm hüququ üstələdi, balası üçün ərzaq oğurlayan valideyn bağışlandı...

**Humanizm heç də bütün cəmiyyətlərdə əsas götürülmür. Xüsusən də hüquq-mühafizə orqanlarının əməkdaşlarının vətəndaşlarla davranışlarında humanizm prinsipləri heç də qorunmur. Azərbaycanda isə bu sahədə vəziyyət bir qədər fərqlidir, humanistlik Azərbaycan polisinin xarakterik xüsusiyyətlərindən birinə çevrilib.**




## *Şəmsəddin Əliyev: "Azərbaycan polisi humanistlik göstərərək atanı övladlarına bağışladı"*

Elə hadisələr var ki, həmin olayın törədilməsi birbaşa cinayət tərkibi yaradır və bunu törədən insan məsuliyyətə cəlb edilir. Yəni qanun bunu diktə edir. Amma bəzən insanlıq və humanizm prinsipləri qanunlardan da vacib təsirə malik olur.

Bu günlərdə sosial şəbəkələrdə Bakının "Qara Qarayev" metrostansiyasında azyaşlı uşaqların oğurlanması ilə bağlı məlumatlar yayılmışdı. Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkədə Bakının "Qara Qarayev" metrostansiyasında azyaşlı uşaqların oğurlanması ilə bağlı yayılan məlumatlara münasibət bildirib. DİN-in Mətbuat Xidmətindən mətbuata verilən məlumata görə, uşaqların oğurlanması xəbəri həqiqəti əks etdirmir. "Qara Qarayev" metrostansiyası yaxınlığında bir kişi mağazadan yağ oğurlayıb. Daha sonra həmin mağazanın satıcısı onun arxası ilə qaçıb. Yağ oğurlayan şəxs "Qara Qarayev" metrostansiyasının platforması istiqamətinə qaçıb. Orada da onun azyaşlı uşaqları olub. Sonra əraziyə polis əməkdaşları gəlib. O, yağı geri qaytarıb, mağaza satıcısı da ondan şikayətçi olmayıb. Həmin şəxs də sərbəst buraxılıb", - deyə məlumatda qeyd edilib.

Azərbaycan polisinin bu məsələdə humanizm sərgiləməsini yüksək qiymətləndirən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev bizimlə söhbətində bildirdi ki, Azərbaycan polisi hər zaman vətəndaşlarla münasibətdə humanizm prinsiplərini qoruyur. "Əlbəttə, Azərbaycan polisinin vətəndaşa qarşı humanist davranması təqdirəlayiq haldır. Əvvəla deyim ki, ölkə Prezidenti İlham Əliyev bir neçə müddət əvvəl qanunverici akt imzalamışdı. Bu aktda göstərilirdi ki, az ictimai təhlükəli cinayət əməli törədən şəxslərə azadlıqdan məhrumetmə cəzası verilməsin, yəni onlar həbsə atılmasın. Bu da ölkə rəhbəri tərəfindən vətəndaşlarımızla bağlı atdığı humanist addımın həm bariz nümunəsidir, həm də Azərbaycan Konstitusiyasının müvafiq maddəsində dövlətin ali məqsədlərini ifadə edən müddəalara hörmətin nümunəsidir. Yəni bu, insan və vətəndaş hüquq və azadlıqlarının, eyni zamanda, onların layiqli həyat səviyyəsini təmin etmək baxımından dövlətin ali məqsədi kimi ifadə olunur. Bu da oradan doğur. Bu gün Azərbaycan polisində başlanan humanist, demokratik islahatlar yüksək nəticə verir və bu, polis və vətəndaş arasındakı münasibətlərin tənzimlənməsinə müsbət təsir edir. Təbii ki, marketdən oğurlanan məhsulun dəyəri vətəndaşın azadlıqdan məhrum edilməsinə, onun barəsində cinayət işinin qaldırılmasına imkan verir, amma Azərbaycan polisi humanistlik göstərərək atanı övladlarına bağışladı. Polis gördü ki, həmin adamın törətdiyi hal təhlükəli cinayət deyil, ona görə də humanistlik göstərdi. Oğurluğun tərifi belədir: özgənin əmlakını gizli yolla talamaq".

*"Polisin bu addımı təqdirəlayiqdir"*

Ş.Əliyevin sözlərinə görə, polis oğurluq edən şəxsi azad buraxmaqla öz səlahiyyətini aşmır. Onun bildirdiyinə görə, bu, polisin fəaliyyətini tənzimləyən müvafiq qanunda, ölkənin Konstitusiyasında, beynəlxalq normalarda və Cinayət Məcəlləsində əksini tapan humanizm prinsipləri ilə bağlıdır.

**Bu amil polisin belə bir addım atmasına imkan verir: "Polisin bu addımı təqdirəlayiqdir. Polis o vətəndaşı saxlayıb, lakin himayəsində olan azyaşlı övladlarının xatirinə onu sərbəst buraxıb. Hesab edirəm ki, bu, polisin doğru qərarıdır".**

*İradə SARIYEVA*

# 341 qadınımız İraq və Suriyaya necə aparılıb...

**Radikal dini-ideoloji fikirlərə əsir olub ya könüllü, ya da aldadılaraq Suriya və İraqa gedərək müxtəlif terror təşkilatlarına qoşulan azərbaycanlı ailələrin acınacaqlı taleyi təkcə onların yaxınları və qohumlarında deyil, azərbaycanlı adını daşıyan hər kəsdə böyük narahatlıq doğurur.**



## *Mehriban Zeynalova: "...məruz qaldıqları təzyiq nəticəsində bu addımı atırlar"*

Açıqlanan statistik rəqəmlərə əsasən, terrorçu təşkilatlara qoşulmaq üçün Suriya və İraqa gedənlərin ümumi sayı 1477 nəfər (1136 kişi və 341 qadın) olan Azərbaycan vətəndaşlarından 903 nəfərin (749 kişi və 154 qadın) öldüyü və ya itkin düşdüyü güman edilir. Şimal, cənub və şimal-qərb regionundan Suriya və İraqdakı ekstremist təşkilatlara qoşulmuş yerli sakinlərin ehtimalları göstərir ki, cənub regionundan 22 nəfər olduğu halda, şimal və şimal-qərb regionunlarından olan "döyüşçülərin" (müvafiq olaraq 201 və 114) payı daha yüksəkdir: "Rəqəmlərdəki bu uyğunsuzluq ekstremist ideyaların şimal sərhədləri boyu yayılması ilə əlaqələndirilə bilər. Geri qayıtmış keçmiş "döyüşçülər" tərəfindən ekstremist ideyaların yayılma risqi Azərbaycanın səlahiyyətli orqanları tərəfindən təsdiq edilib və bu təhlükənin qarşısının alınması istiqamətində bir sıra tədbirlər görülüb. Həmin şəxslərdən az sayda terrorçu Azərbaycana qayıdıb və sanksiyalara məruz qalıblar".

Qeyd etdiyimiz kimi, İraq və Suriyaya aparılanlar arasında 341 qadın var. O qadınların ora necə aparılması və hansı şəraitdə saxlanması müəmmalıdır. Həmin qadınlar arasında elələri var ki, onlar övladları ilə birgə İraq və Suriyaya gediblər.

"Təmiz Dünya" Qadın İctimai Birliyinin sədri Mehriban Zeynalova bildirdi ki, azərbaycanlı qadınlar daha çox aşpazlıqla məşğul olur və ya camaşırxana xidmətində çalışırlar. İŞİD döyüşçülərinin gündəlik tələbatını qarşılayan məlum kateqoriya arasında azərbaycanlı qadınların da sayı az deyil: "Hətta Suriya və İraqdakı İŞİD dəstələrinə qoşulan azərbaycanlı qadınların önəmli bir qisminin Sumqayıt şəhərindən olduğu da iddia edilirdi".

*"Psixoloji kompleksləri, yaşam şəraitindən, ailəsindən narazılığı olan qadınların da terror qruplaşmalarına qoşulmaları mümkündür"*

Birlik sədrinin sözlərinə görə, Azərbaycan qadınlarının terror təşkilatlarına qoşulmasının müxtəlif səbəbləri var: "İŞİD terror təşkilatına qoşulan qadınların əksəriyyətinin beyinləri ərləri tərəfindən "yuyulur" və ya məruz qaldıqları təzyiq nəticəsində bu addımı atırlar. Bəziləri də maddi gəlir müqabilində terror təşkilatına üzv olurlar. Ancaq bunun üçün də mütləq şəkildə təsiredici qüvvələr olur. Psixoloji kompleksləri, yaşam şəraitindən, ailəsindən narazılığı olan qadınların da terror qruplaşmalarına qoşulmaları mümkündür".

M.Zeynalova onu da əlavə etdi ki, qadın həssas varlıq olduğu üçün, onu ideoloji təsir altına salmaq asandır: "Qadınlar daha az şübhə çəkdikləri üçün, terror təşkilatları onları öz sıralarına cəlb etməkdə maraqlı olurlar. Dünya üçün qadın sülh, əminamanlıq, humanistlik simvolu hesab edilir. Terror təşkilatları da məhz bunları nəzərə alaraq vasitəçi kimi qadınlardan istifadə edirlər. Bəzən təsir, bəzən təzyiq, bəzən də pulla onları ələ alıb, öz istədiklərini edirlər".

*Günel CƏLİLOVA*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**Dünya neft bazarında baş verən proseslər göstərir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən məqsədyönlü siyasət öz bəhrəsini verməkdədir. Belə ki, cari il ərzində Azərbaycan iqtisadi artım səviyyəsinə görə dünya ölkələri arasında ön sıralardadır.**

Prezident İlham Əliyev dəfələrlə öz çıxışında qeyd edib ki, Azərbaycanda dinamik inkişaf təmin edilir və sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda qeydə alınan inkişaf artmaqdadır: "Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olub. Çünki uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft-qaz sektorundan asılı olmasın. Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir".

Məlumdur ki, iqtisadi inkişafın əsas elementlərindən biri də ölkədə sahibkarlıq üçün əlverişli mühit yaradılmasıdır. Çünki iqtisadiyyatın tərəqqisi üçün rəqabət mühiti və şaxəli şəkildə inkişaf olmalıdır. Hər bir ölkənin iqtisadi tərəqqisində onun azad biznes və sahibkarlıq mühitinin vəziyyəti vacib rol oynayır. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi faktorları ümumi inkişafın göstəricisinə çevrilir. Dövlətin təmin etdiyi azad bazar institutu ölkədə sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Eyni zamanda, ölkədəki xarici sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsi iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri hesab olunur. Bu mənada bazar iqtisadiyyatını əsas istiqamət seçən Azərbaycan hökumətinin biznes mühiti ilə bağlı həyata keçirdiyi tədbirlər böyük əhəmiyyət daşıyır. Müasir dünyada bazar iqtisadiyyatını azad sahibkarlıq fəaliyyəti və liberal iqtisadiyyat olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının təminatı özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafından asılı olduğu üçün, respublikamızda sahibkarlığın inkişafı prioritet istiqamətlərdən biridir və özəl sektor ölkə iqtisadiyyatının inkişafında və qeyri-neft sektorunun şaxələnməsində xüsusi rol oynayır. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkədə sahibkarlığın inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılıb. Son illər ölkənin dinamik inkişafında iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Müstəqillik qazandıqdan sonrakı dövrdə sahibkarlığın təşəkkülü və inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilməkdə davam edir. Ölkədə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərmək, onlara maliyyə dəstəyi vermək məqsədilə Sahibkarlığa Kömək Milli Fondu yaradılıb.

Qeyd edək ki, qeyri-neft sektorunun, azad sahibkarlığın inkişafı Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin başlıca istiqamətlərindən biri olmaqla, eyni zamanda, iqtisadi və sosial problemlərin həllində mühüm amildir. Ötən illər ərzində ölkədə sahibkarlığın inkişafı üçün vacib olan qanunvericilik bazası yaradılıb, sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsini, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsini, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən normativ-hüquqi aktlar qəbul edilib. Bu baxımdan, sahibkarlıq subyektlərinin qeydiyyatı, idxal-ixrac əməliyyatları sahəsində "Bir pəncərə" prinsipinin tətbiqi mühüm əhəmiyyətə malikdir.

Ölkədə biznes mühitinin yaxşılaşdırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, sağlam rəqabətin təmin edilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, sahibkarların maarifləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər tədbirlər nəticəsində ümumdaxili məhsulun həcmində özəl sektorun payı artıb. Aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 70-99 faiz arasında dəyişir. Məşğulluğun 73,4 faizi özəl sektor tərəfindən təmin edilir.

Onu da qeyd edək ki, ölkədə sahibkarlıq subyektlərinin 40 faizi Bakı şəhərində, qalanları isə regionlarda qeydiyyatdan keçib.

Məlumdur ki, Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində dövlət tərəfindən bir sıra işlər görülür. Bu sektorun inkişafı üçün Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın dəstəklənməsinin ayrıca bir qurum tərəfindən həyata keçirilməsidir. Bir sıra inkişaf etmiş ölkələrdə də belə qurumlar fəaliyyət göstərirlər.

**Sahibkarlığın inkişafı yeni iş yerlərinin yaradılmasına səbəb oldu**

Sahibkarlığın inkişafı məqsədilə dövlət tərəfindən onlara hər cür şərait yaradılır. Belə ki, sahibkarlara dövlət tərəfindən tək güzəştli kredit deyil, eyni zamanda, texniki dəstək də göstərilir. Aqrar sahə ilə məşğul olanlar üçün texniki köməklik göstərilməkdə davam edir. Belə ki, qeyd olunan sahəyə kömək üçün verilən texnikanın sayı və çeşidi genişləndirilir, yeni kənd təsərrüfatı texnikasının alınması üçün müəyyən məbləğdə vəsait ayrılır. Həmin vəsaitlər hesabına fermerlərə taxılbiçən, pambıqyığan kombaynlar, traktorlar, qoşqular, digər texnikalar da alınaraq verilib.

Danılmaz faktdır ki, illər öncə ölkə vətəndaşları iş axtarmaq üçün Rusiya və digər MDB ölkələrinə üz tuturdularsa, son illər ölkədə sahibkarlığın inkişafı sayəsində əks proses başlayıb. Nəin ki, MDB-dən, ümumilikdə, dünyanın bir çox ölkəsindən işaxtaranlar iqtisadi baxımdan cəlbedici ölkə kimi respublikamıza üz tuturlar. Vaxtilə iş tapmaq ümidilə başqa ölkələrə gedən vətəndaşlarımızın son illər geri qayıtması, habelə əcnəbi miqrantların leqal, bəzən də qeyri-leqal şəkildə respublikanın əmək bazarına can atmaları sahibkarlıq subyektlərinin və yüksək gəlirli iş yerlərinin sayının artması ilə izah olunur. Yeni iş yerlərinin yaradılması bilavasitə sahibkarlığın inkişafı və kapital qoyuluşlarının həcminin artması ilə sıx bağlı proses olduğundan, hökumət iş adamları üçün ildən-ilə daha yaxşı imkanların yaradılmasına çalışır.

Ölkədə vergi islahatlarının əsas istiqamətlərindən biri kiçik biznesin inkişafına təkan verməkdir. Sadələşdirilmiş verginin həddinin 2 faiz səviyyəsində müəyyənləşdirilməsi məhz sahibkarlığın inkişafı üçün atılan addımlardan biri idi.

**Sahibkarlar rayon qeydiyyatında dayanaraq vergidən yayınmağa çalışırdılar, ancaq indi isə...**

Millət vəkili Azər Badamov bildirdi ki, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı dövlət siyasətinin tərkib hissəsinə çevrilib: "Bu sahədə son 10 ildə sahibkarlıq subyektlərinə dövlət büdcəsindən 2,2 milyard manat güzəştli kredit verilib, yeni istehsal sahələrinin inkişafı üçün müasir infrastruktur formalaşdırılıb. Vergi Məcəlləsinin 190-dan çox maddəsində edilmiş dəyişikliklər sahibkarların şəffaf və müasir tələblərə uyğun fəaliyyət göstərilməsinə şərait yaradır. Vergi Məcəlləsində dəyişikliklərin əksəriyyəti qeyri-neft sektorunun inkişafı məqsədilə bu sahəyə yeni güzəştlər tətbiq etməkdir. Bütün ölkə ərazisində sadələşdirilmiş verginin 2 faizə endirilməsi sahibkarların olduğu yer üzrə qeydiyyatına şərait yaradacaq. Əvvəllər Bakı şəhərində sadələşdirilmiş verginin dərəcəsi 4 faiz olduğundan, sahibkarlar rayon qeydiyyatında dayanaraq vergidən yayınmağa çalışırdılar. İndiki halda vergi dərəcəsi ölkə ərazisində eyni olduğu üçün belə bir addım atmağa ehtiyac qalmır ki, bu da vergi ödəyicilərinin uçotunun şəffaflaşdırılmasına şərait yaradır".

Millət vəkili Aydın Hüseynovun sözlərinə görə, qeyri-neft sektoru sahəsinə göstərilən diqqət artıq öz bəhrəsini verməkdədir: "Son illər ərzində ölkə iqtisadiyyatında kiçik və orta sahibkarlığın xüsusi çəkisi artmaqdadır. Sahibkarlığın getdikcə daha böyük rol oynaması inkişaf dinamikasına öz müsbət təsirini göstərir. Ölkə Prezidenti də sahibkarlığın inkişafı üçün həm maddi, həm də siyasi dəstək göstərir. Son illər sahibkarlığın inkişafına dair qanunvericilik bazasına da xeyli dəyişiklik edildi. Xüsusən kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün qanunlarda mühüm dəyişikliklər aparıldı".

Sonda qeyd edək ki, bu gün ölkə iqtisadiyyatı qarşısında duran mühüm vəzifələrdən biri qeyri-neft sektorunun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, təkmilləşdirilməsi, onun dövlət tərəfindən müasir bazar iqtisadiyyatının prinsipləri əsasında daha səmərəli tənzimlənməsidir.

Dünya maliyyə-iqtisadi böhranı bir daha sübut etdi ki, bütün ölkələr üçün eyni inkişaf reseptləri, tövsiyələr qəbul edilə bilməz. Müasir bazar iqtisadiyyatın bütün sahələrinin qarşılıqlı təsirindən ibarət olan mürəkkəb, çoxsahəli sistemdən ibarətdir. Bazar iqtisadiyyatını isə azad rəqabətə əsaslanan sahibkarlıq fəaliyyəti olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycanın hazırkı və gələcək iqtisadi tərəqqisi də məhz sahibkarlığın hansı səviyyədə inkişaf etdirilməsindən asılıdır.

*Namiq QULİYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.**

# Digah kəndinin yeni massiv sakinləri fəlakət içində - uşaqlar məktəbə gedə bilmir, "köçüb qohumlargildə yaşayırıq"...

## Gülnarə Cəbiyeva: "Əsas problemimiz məktəb, yol infrastrukturu və kanalizasiya sisteminin olmaması ilə bağlıdır"

**Abşeronun orta əsr kəndlərindən biri olan Digah (yerli camaat kəndi Dügah adlandırır - İ.S.) böyük bir qəsəbəyə çevrilib. Öz adət-ənənəsi, yaşam tərzu, xüsusi şirin ləhcəsi olan Digah camaatı kənddəki maddi-mədəni abidələri, adətləri, dəyərləri qorumaqdadır.**

Digah sözünün mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Biz isə sözün etimiologiyası ilə bağlı daha çox səsləndirilən iki mülahizənin üzərində dayanmaq istəyirik. Etnoqraf və tarixçi-alimlər hesab edirlər ki, Digah sözünün bir mənası "yüksək suvarılmayan yer", ikinci mənası isə "iki təpə arasında yer, məkan, kənd"dir. Hazırda ərazisi 417 hektar, əhalisi isə 4656 nəfər olan Digah

Abşeron rayonunun inzibati ərazi vahidində şəhər tipli qəsəbədir və qeyd etdiyimiz kimi, Abşeron yarımadasında yerləşir.

Onu da bildirək ki, Digah Abşeron rayonunun Məhəmmədi, Balaxanı və Fatmayı kəndləri ilə qonşudur. Digər kəndlərdə oldugu kimi, Digah kəndinində tarixi tam öyrənilməyib və bu kəndin tarixinin, etnoqrafiyasının dərindən öyrənilməsinə ciddi ehtiyac var.

Buna baxmayaraq, bu ərazidə olan abidələr kəndin qədim olmasının göstəricisidir. Digahda tunc dövrünə aid göl də, digər abidələr də mövcuddur. Qeyd edilənə görə, kəndin əsasını tərəkəmə türk tayfasından olan insanlar təşkil edib, bu gün orada yaşayan yerli sakinlər də tərəkəmələrin törəmələridir. Alimlərin qeyd etdiyinə görə, sonrakı dövrlərdə isə kəndə müxtəlif ərazilərdən, o cümlədən, Cənubi Azərbaycandan insanlar köçüb gəlib. Hazırda Digahda qədim türk tayfalarından biri olan Şahsevərlər məhəlləsi mövcuddur. Aparılan araşdırmalar nəticəsində kənd ərazisində qədim dövrlərə aid heyvan sümükləri də aşkar olunub və bu da kəndin tarixinin daha qədim olduğunu sübut edən amillərdən biridir.

Tarixçilər vurğulayırlar ki, Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, Digah kəndi də 1918-ci ildə erməni işğalçılarının hücumuna məruz qalıb və bu da kəndin viran qoyulması ilə nəticələnib. Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun əsgərlərinin Digaha da daxil olması nəticəsində ərazi ermənilərdən təmizlənib. Onu da bildirək ki, Digahda doyüşən türk şəhidlərimizin qəbirləri hələ də qalmaqdadır və hətta onların məzarları üzərində abidə də ucaldılıb.

Qeyd edək ki, Digah kəndi hər zaman kinematoqrafların da diqqətini çəkib və müxtəlif filmlərin müəyyən kadrları bu kənddə lentə alınıb. Məlumatlara görə, 1986-cı ildə Cəlil Məmmədquluzadənin əsəri əsasında çəkilən "Qəm pəncərəsi" filminin bir neçə səhnəsi Digahda lentə alınıb.

Digahdan yazmağımız, onun tarixi ilə bağlı qısa arayış verməyimiz təsadüfi deyil. Böyük tarixə malik və müasir dövrün tələblərinə uyğun inkişaf etməli olan Digahın yol infrastrukturu və kanalizasiya sistemi normal vəziyyətdə deyil.




*"Ümid edirəm ki, sizin qəzet vasitəsilə bizim problemlər əlaqədar qurumlara çatacaq və onlar bu istiqamətdə işlər görəcəklər"*

Digah qəsəbəsi, Xətai küçəsində yaşayan sakinlər "Bakı-Xəbər"ə müraciət edərək yolların bərbad olmasından və kanalizasiya xəttinin olmamasından şikayətləndilər. Öz adından və qonşular adından redaksiyamıza müraciət edən sözügedən ünvanın sakini Gülnarə Cəbiyeva bizimlə söhbətində bildirdi ki, Digahın son illər salınan məhəlləsində yaşayırlar. Digahın mərkəzində yolun normal olduğunu deyən G.Cəbiyevanın sözlərinə görə, yeni məhəllədə sakinlər əməlli-başlı problem yaşayırlar. Yağış yağan kimi yolların gil-palçıq olduğunu deyən G.Cəbiyevanın sözlərinə görə, bu da uşaqların məktəbə normal şəkildə gedib-gəlməsinə ciddi əngəl törədir. Həmçinin, işə gedən sakinlər də əməllicə problem yaşayırlar. G.Cəbiyeva qeyd etdi ki, məktəb onların yaşayış yerlərindən xeyli uzaqda yerləşir və uşaqların məktəbə getməsi üçün çətinliklər var. "Biz 2002-ci ildə Digahda salınan yeni yaşayış yerinə köçmüşük. Biz bura gələndə qonşuların sayı elə də çox deyildi, amma ilbəil burada əhalinin sayı artır. Bu gün yeni salınan yaşayış ərazisinin özü əməlli-başlı bir qəsəbəyə çevrilib. Bizim nə qaz, nə işıq, nə də su ilə bağlı heç bir problemimiz yoxdur. Onlar qaydasındadır. Əsas problemimiz məktəb, yol infrastrukturu və kanalizasiya sisteminin olmaması ilə bağlıdır. Bir az yağış yağan kimi yollarda yerimək, hərəkət etmək müşkülə çevrilir. Kanalizasiyanın olmaması da problemlər yaradır. Məktəb və uşaq bağçası bizim yaşayış yerindən uzaqda yerləşdiyi üçün, uşaqları məktəbə, bağcaya aparmaq üçün əməlli-başlı əziyyət çəkirik".

G.Cəbiyeva bildirdi ki, problemin həlli üçün sakinlər yerli bələdiyyəyə və Abşeron Rayon İcra Hakimiyyətinə müraciət ediblər, lakin bələdiyyədən onlara "biz camaatdan pul yığa bilmirik, pulumuz olmadığı üçün, bu problemi həll edə bilmərik", İcra Hakimiyyətindən isə "probleminiz həll ediləcək" deyilib, lakin 1 ildən artıqdır hələ də Digah qəsəbəsinin Xətai küçəsində yaşayan sakinlərinin problemlərinin həlli istiqamətində heç bir addım atılmayıb.

G.Cəbiyevanın sözlərinə görə, Digahın yeni salınan yaşayış ərazisinin yollarının asfaltlanması, kanalizasiya sisteminin qurulması əraziyə turist axınının baş verməsinə böyük şərait yarada bilər. "Bizim yaşadığımız ərazi Yanardağa lap yaxındır. Bilirsiniz ki, Yanardağ qoruğu da turistlərin ən çox maraq göstərdiyi obyektlərdən biridir. Yollarımız asfaltlansa, kanalizasiya sistemi düzəlsə, turistləri bura da cəlb etmək olar.

Yollar çal-çamır olduğu üçün, kanalizasiya olmadığına görə burada yaşamaq çox çətindir. Çox zaman gedib şəhərdəki qohumların evində qalırıq, əsasən də yağmurlu havalarda. Suyun, palçığın əlindən günlərlə evdən çölə çıxa bilmirik. Bu amil, yenə də deyirəm, uşaqların da məktəbə getməsinə əngəl törədir. Ümid edirəm ki, sizin qəzet vasitəsilə bizim problemlər əlaqədar qurumlara çatacaq və onlar bu istiqamətdə işlər görəcəklər" - deyə G.Cəbiyeva bildirdi.

***İradə SARIYEVA***

№ 221 (4119) ■ Qiymәti: **40 qәpik**

# BAKI XƏBƏR

**12** DEKABR 2019-cu il

www.baki-xeber.com

# Son 10 ildә Arktikada isinmә 137 ildә Yerin qalan hissәsindә olduğundan çoxdur



**Yeni tәdqiqatın nәticәlәrinә, qütblәrdә isinmә planetin qalan әrazisindә olduğundan daha çoxdur. "AZƏRTAC" bildirir ki, "Science Advance" jurnalında dәrc olunmuş yeni tәdqiqatın nәticәlәri Arktikanın necә sürәtlә isindiyini göstәrir vә davam edәn qütb isinmәsinin qlobal fәsadlarını izah edir.**

Tәdqiqatda bir sıra elm sahәlәri, o cümlәdәn tәbiәtşünaslıq, sosial vә siyasi elmlәr üzrә ixtisaslaşmış 15 alim iştirak edib. Onların qәnaәtinә görә, son on ildә Arktika 0,75 dәrәcә, bütün planetin temperaturu isә son 137 ildә elә hәmin sәviyyәyә yaxın - 0,8 dәrәcә Selsi isinib. Tәdqiqatın aparıcı müәllifi olan Erik Post bununla bağlı qeyd edib: "Son illәrin iqlim dәyişikliklәri olduqca dramatikdir. Onlar növbәti on ildә necә isinmә baş verәcәyi barәdә düşünmәyә vadar edir". Alimlәrin proqnozlarına görә, növbәti 40 ildә Yer kürәsindә ümumi temperatur sәviyyәsi 2 dәrәcә Selsi artacaq. Bunun nәticәsindә Arktikada ilin bir neçә ayı әrzindә temperatur 7 dәrәcә, Antarktidada isә 3 dәrәcә Selsi qalxacaq. Tәdqiqatçılar qeyd edirlәr ki, Arktikada isinmә vәhşi tәbiәtә, insan fәaliyyәtinә, tundranın florasına, metan emissiyasına vә bütün dünyada buzların әrimәsinә tәsir edәcәk. Lapland Universiteti Arktika Mәrkәzinin elmi işçisi Bryus Forbsun qәnaәtinә görә, hazırda insanlar Arktikanın tamamilә dәyişmәsәlәr belә, şübhәsiz ki, bu prosesin astanasındadırlar. Tәdqiqatçı Rusiyanı misal gәtirir: son illәr ekstremal hava şәraiti qışda qarın üzәrindә buzlaşma olması sәbәbindәn şimal marallarının kütlәvi qırılmasına, habelә bu heyvanların daimi buzlaqların әrimәsi üzündәn yaranan Sibir xorasından tәlәf olmasına gәtirib çıxarıb. İsinmәnin әsas fәsadları qütb regionunun hüdudlarından kәnara yayılır ki, bunun da sәbәbi karbon qazı emissiyasının artmasıdır. Bu fәsadlar Arktika vә Antarktika buzlaqların әrimәsin nәticәsindә dәniz suyunun sәviyyәsinin qalxması, habelә ekstremal hava şәraitinin yaratdığı yüksәk risk dәrәcәsi, anomal istilәr vә Şimal yarımkürәsinin bәzi hissәlәrindә meşә yanğınlarıdır. Tәdqiqatçılar hesab edirlәr ki, karbon qazının atmosferә emissiyasının azaldılması üzrә aktiv vә operativ tәdbirlәr sayәsindә yüksәk enliklәrdә, xüsusilә Arktikada isinmәni gecikdirmәk mümkündür.

## 2011-ci ildә ölәn qadın 8 il sonra basdırıldı



**Universitetdә işlәyәn qadın ölümündәn 8 il sonra dәfn edilib.**

"Milli.Az" Türkiyә mәtbuatına istinadla xәbәr verir ki, xәrçәng olduğunu öyrәnәn Ayşe Kızmaz adlı türkiyәli qadın öldükdәn sonra xәstәxanada cәsәdindәn test mәqsәdli istifadә olunmasını vәsiyyәt edib. O, öldükdәn sonra 8 il boyunca cәsәdinin üzәrindә tibb fakultәsi tәlәbәlәrinә dәrs öyrәdilib. Ayşe Kızmazın cәsәdi bir neçә gün әvvәl yaxınlarının iştirakı ilә torpağa tapşırılıb. Qeyd edәk ki, 1981-ci ildә Metin Aşçı adlı şәxslә ailә quran Ayşe Kızmaz 27 yaşında xәrçәng xәstәliyinә yoluxduğunu öyrәnib. 10 dәfәdәn çox әmәliyyat olunan Ayşe Kızmaz 2011-ci ildә vәfat edib.

## Elan

Şәki şәhәr sakini Yusifov Mustafa Mәmmәd oğlunun adına verilmiş 404013011394 - 1031 saylı reyestrdәn çıxarış sәnәdi itdiyi üçün etibarsız sayılır.

---

Şәki rayonu, Oraban kәnd sakini Mәmmәdov Nail Qәdim oğlunun adına verilmiş Qarabağ müharibәsi veteranı vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın müsabiqәsinә qoşul, Yeni ili Moskvada qarşıla!

**Sәyahәtsevәrlәr üçün sәrfәli rominq tәkliflәri ilә seçilәn "Nar", Yeni il әrәfәsindә abunәçilәrinin bayram ab-havasına xüsusi rәng qatmaq üçün maraqlı müsabiqә elan edib. Belә ki, mobil operatorun rәsmi "Instagram" sәhifәsindә 19 dekabr tarixinәdәk davam edәcәk müsabiqәdә qalib gәlәn istifadәçi Yeni ili Moskvada qarşılamaq imkanı әldә edәcәk.**

Müsabiqәyә qoşulmaq üçün "Nar"ın "Instagram" sәhifәsinin hekayә bölmәsindә paylaşılan 5 suala düzgün cavab vermәk lazımdır. Qalib bütün suallara düzgün cavab vermiş istifadәçilәr arasından tәsadüfi üsulla seçilәcәk. Birinci yerin sahibi olan "Nar" abunәçisi dekabrın 31-dәn yanvarın 6-dәk davam edәcәk sәyahәti zamanı hәm Moskvanın әsrarәngiz gözәlliyindәn zövq alacaq, hәm dә keyfiyyәtli rominq xidmәtindәn yararlanacaq.

Qeyd edәk ki, qalib gәlәn şәxsin adı dekabrın 20-si saat 10:00-da elan olunacaq. Müsabiqәnin şәrtlәrilә daha әtraflı buradan tanış ola bilәrsiniz.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,7%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8600-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Gün qeyri-standart çıxış yolları vә qeyri-adi davranışa üstünlük verәnlәr üçün çox uğurludur. Şәxsi hәyatınızda tәşәbbüs göstәrin. Yaxınlarınız ideyalarınıza dәstәk olacaqlar.



**Buğa** - Günün birinci yarısı dünyada heç nә sizin öz gücünüzә inamınızı sarsıda bilmәz. Çәtin işlәri görmәyә, mürәkkәb mәsәlәlәri hәll etmәyә çalışın. Bir çox Buğaların mәqsәdlәri var.



**Əkizlәr** - Rәhbәrliklә münaqişәdәn qaçın: tezliklә yüksәkvәzifәli şәxslәrin dәstәyinә ehtiyacınız olacaq. Dostlarla ünsiyyәt, hәmfikirlәrlә görüşlәr üçün münasib gündür. Yaradıcı peşәnin adamlarının yeni layihәlәrә bağlı gözәl ideyaları olacaq.



**Xәrçәng** - Mövqeyinizi qorumaq üçün qәtiyyәt göstәrmәyiniz gәrәk olacaq. Sәrt müzakirәlәrә qatılan Xәrçәnglәr daha yüksәk vәzifә tutan insanlarla kәllә-kәllәyә gәlәcәklәr. Cәmiyyәtdә yüksәk mövqe tutan bir insanla romantik münasibәtlәriniz yarana bilәr.



**Şir** - Çox yaxşı bir gün keçirәcәksiniz. Əgәr onun daha da mәhsuldar olmasını istәyirsinizsә, әvvәlcәdәn hәrәkәt planı qurun vә bütün xırdalıqlarına qәdәr ona әmәl edin. Maliyyә işlәri ehtiyat tәlәb edir, sövdәlәşmәlәr bağlamağa tәlәsmәyin.



**Qız** - Hәyatınızda dәyişikliklәr istәyirsiniz? Nә durmusunuz, hәrәkәt edin! Tәşәbbüs göstәrmәk, yeni layihәlәrә başlamaq zamanıdır. Heç bir çәtinlik çәkmәdәn tәrәfdaş tapır, nüfuzlu insanların dәstәyini qazanırsınız.



**Tәrәzi** - Parlaq, maraqlı gündür. Maraq doğuran tәkcә baş verәn hadisәlәr deyil, sizin onlara münasibәtinizdir. Sabit emosional fon gün әrzindә gözәl әhvalı qoruyub saxlamağınıza kömәk edәcәk.



**Əqrәb** - Çox uğurlu gündür. Hәr şeyi qara tonlarda görmәyә adәt etmiş insanlardan kәnar gәzin, onların tәsiri altına düşә bilәrsiniz. Nikbin adamlarla ünsiyyәt isә kefinizi açacaq vә bu әhval uzun müddәt davam edәcәk.



**Oxatan** - Ünsiyyәt üçün әla gündür, istәnilәn xarakterli görüş tәyin edә bilәrsiniz. İntuitiv olaraq özünüzü necә aparmağı, söhbәt üçün hansı tonu seçmәyi, insanı maraqlandırmaq üçün ona nә tәqdim etmәyi gözәl bilirsiniz.



**Oğlaq** - Maraqlarınızı vә dünya baxışınızı bölüşәn insanlarla ünsiyyәt üçün münasib gündür. Qadınlarla dil tapmaq asandır, eyni zamanda köhnә tanışınız olan bir xanım sizә gözlәmәdiyiniz halda kömәk vә dәstәk verәcәk.



**Dolça** - Çoxdan arzuladığınız bir işi hәyata keçirә bilәrsiniz, tәrәddüd etmәyin, uğur sizinlә olacaq. Şәraitin uğurlu istiqamәtdә dәyişmәsi çoxdankı bir ideyanızı reallaşdırmağınıza imkan verәcәk.



**Balıqlar** - Xasiyyәtinizin әn gözәl tәrәflәrini nümayiş etdirmәk üçün әla gündür. Cәsarәt, qәtiyyәt, fәhm hәm qarşınıza qoyduğunuz mәqsәdә çatmağınıza, hәm dә biganә qala bilmәdiyiniz bir insanı valeh etmәyinizә imkan verәcәk.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Alimlәr әn uzun vә mürәkkәb şifrlәmә açarına müdaxilә etmәyә nail olublar



**Fransalı alimlәr әn mürәkkәb şifrlәmә açarına müdaxilә ediblәr.**

Bundan ötrü onlar dünyada eyni anda işlәyәn çoxlu sayda kompüterdәn istifadә ediblәr vә müdaxilә vaxtını әvvәlki 35 milyondan minәdәk hesablama saatınadәk azaldıblar. "İctnews.az" bildirir ki, RSA sistemi proqram tәminatı vә rәqәmli imza sxemlәrinin qorunması üçün istifadә olunur. Onlar hәm alqoritmin mürәkkәbliyi, hәm dә vaxt üzrә әvvәlki rekordu yenilәyiblәr. Ancaq tәdqiqatçılar qeyd ediblәr ki, müasir tәhlükәsizlik sistemlәrindә belә kriptoqrafiya açarlarından nadir hallarda istifadә olunur. Bu әdәdin uzunluğu әksәr kompüterlәrdә istifadә edilәn 2048 bitlik şifrlәmә açarından 3 dәfә azdır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.